QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 060 (5780) **5 aprel** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# 2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaq

*Prezident İlham Əliyev: "Bizim maliyyə vəziyyətimiz yaxşılaşır, sabit olaraq qalır və bu, əlbəttə, bizə imkan verir ki, əlavə gəlirləri, ilk növbədə, vətəndaşların sosial müdafiəsinə yönəldək"*

Səh 5




"Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin səviyyəsi ildən-ilə yüksəlir"



2

Azərbaycanın Baş naziri Rusiyanın sənaye və ticarət naziri ilə görüşüb



4

Elmar Məmmədyarov: "Avropa İttifaqı ilə yeni sazişə dair danışıqlarımızı yekunlaşdırmağa çox yaxınıq"



4

"Moskva Dağlıq Qarabağ münaqişəsi tərəflərinin mövqelərinin yaxınlaşmasında vasitəçilik etməyə hazırdır"



2

Dövlət Sərhəd Xidmətinin Akademiyasında təşkil olunan akademik kursların məzunlarına sertifikatlar verilib



4

"Müharibə əlilləri diqqət və qayğı ilə əhatə olunub"



7

13 Ermənistanda əhalinin hakimiyyətdən narazılığı getdikcə artır



12 Kiyevdə Nəsiminin heykəli ucaldılacaq



9 İspaniya portalı Ermənistanın tarixi abidələrinə qarşı vandalizmindən yazır



# "Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin səviyyəsi ildən-ilə yüksəlir"

## *Prezident İlham Əliyev Rusiyanın sənaye və ticarət nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Rusiya Federasiyasının sənaye və ticarət naziri Denis Manturovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Rusiya Federasiyasının sənaye və ticarət naziri Denis Manturovun başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin ölkələrimiz arasında qarşılıqlı əlaqələrin daha da genişləndirilməsi işinə xidmət etdiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin səviyyəsinin ildən-ilə yüksəldiyini və bütün sahələrdə fəal əməkdaşlığın həyata keçirildiyini bildirdi. Dövlətimizin başçısı müxtəlif istiqamətlərdə, o cümlədən sənaye sahəsində əməkdaşlığın inkişafından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev son illər ölkələrimiz arasında ticarət dövriyyəsinin artmasının önəmini vurğuladı və bu sahədə artıq yaxşı nəticələrin əldə olunduğunu dedi. Dövlətimizin başçısı Rusiya şirkətlərinin Azərbaycanda fəal işlədiklərini və bu şirkətlərin həm investor, həm də podratçı qismində müxtəlif layihələri icra etdiklərini qeyd etdi. Prezident İlham Əliyev maşınqayırma sahəsində də birgə layihələrin olmasından məmnunluğunu ifadə etdi, Rusiya banklarının Azərbaycanda iri sənaye müəssisələrini maliyyələşdirməsinin əhəmiyyətini vurğuladı.

Xoş sözlərə görə minnətdarlığını ifadə edən nazir Denis Manturov Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarını Prezident İlham Əliyevə çatdırdı.

O, Azərbaycanda Rusiya ilə birgə şirkətlərin fəaliyyət göstərməsinin və ümumi layihələrin həyata keçirilməsinin iqtisadi əməkdaşlığın genişlənməsi üçün möhkəm əsas yaratdığını vurğuladı. Denis Manturov qeyd etdi ki, Azərbaycan Respublikası Prezidentinin ötən ilin sentyabrında Rusiya Federasiyasına səfəri zamanı dövlət başçılarının müəyyənləşdirdiyi kimi iqtisadi əməkdaşlığın konkret sahələrinin inkişafı ilə bağlı fəal iş həyata keçirilir və yeni sahələr, o cümlədən rəqəmsallaşdırma üzrə perspektivlər müzakirə edilir. Denis Manturov iqtisadi əməkdaşlığın inkişafında kibertəhlükəsizliyin önəmini xüsusilə vurğuladı. Azərbaycan-Rusiya Sənaye Əməkdaşlığı Forumunun əhəmiyyətinə toxunan rusiyalı nazir Forumda 60-dan artıq Rusiya şirkətinin iştirak etdiyini vurğulayaraq tədbirdə Azərbaycan şirkətləri ilə işgüzar müzakirələrin aparılacağına ümidvar olduğunu bildirdi.

Görüşdə neft maşınqayırması, kənd təsərrüfatı texnikasının və yük vaqonlarının birgə istehsalı, helikopterlərin servis mərkəzinin yaradılması, dərman istehsalı və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə edildi.

Dövlətimizin başçısı Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya Prezidentinə çatdırmağı xahiş etdi.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Daşkəsən rayonunun Gəncə-Daşkəsən (27 km)-Quşçu-Çovdar-Çaykənd avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Nizami Xudiyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Nizami Manaf oğlu Xudiyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin. Nazirlər Kabineti Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

## "Moskva Dağlıq Qarabağ münaqişəsi tərəflərinin mövqelərinin yaxınlaşmasında vasitəçilik etməyə hazırdır"



Rusiya Dağlıq Qarabağ münaqişəsi tərəflərinin mövqelərinin yaxınlaşmasında vasitəçilik etməyə hazırdır. AZƏRTAC xəbər verir ki, bunu Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova Moskvada keçirilən brifinqdə bildirib.

Ermənistanın müdafiə nazirinin danışıqların ruhuna zidd olan aqressiv bəyanatı ilə əlaqədar M.Zaxarova deyib ki, Rusiya münaqişənin siyasi-diplomatik həllinin tərəfdarıdır. M.Zaxarova deyib: "Prosesə kömək edirik, əlaqələr saxlayırıq. Düşünürəm ki, konkret bəyanatları şərh etməyin mənası yoxdur. Şübhəsiz ki, tərəflərin qarşılıqlı razılaşmalarına üstünlük verilir". M.Zaxarova qeyd edib ki, mövqelərin yaxınlaşması ilə əlaqədar məsələlər varsa, Rusiya onları alqışlayır. Onun sözlərinə görə, buna ehtiyac yaranarsa, Moskva ATƏT-in Minsk qrupunun həmsədri qismində götürdüyü öhdəliklər çərçivəsində kömək etməyə hazırdır.

## İsveçrənin səyahət portalında Bakı haqqında məqalə yerləşdirilib

***İsveçrənin www.travel-blog.ch səyahət portalında "Bakı - qədim köklərə malik şəhər" adlı məqalə dərc olunub.***

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan paytaxtı Bakı şəhəri tarixi-mədəni və turistik imkanları barədə ətraflı məlumat verilir. Qeyd edilir ki, şəhər tarix, incəsənət və memarlığa həvəs göstərən səyahətçilər üçün sonsuz zövq mənbəyidir. Müasir memarlıqdan tutmuş qədim tarixə malik küçələrə qədər müxtəlif məkanları ilə "Küləklər şəhəri" qonaqları cəlb edir. Muzey, göydələn və tarixi məkanları ilə diqqət çəkən bu şəhər qədim adətənənələrlə müasirliyin mükəmməl vəhdətini təşkil edir.

Məqalədə Bakı şəhərinin ən qədim dövrlərə gedib çıxan tarixindən də bəhs olunur. Qeyd edilir ki, bu ərazilərdə insan məskənlərinə Qobustanda rast gəlmək mümkündür. Tarixin müxtəlif dövrlərində bu şəhərin simasını dəyişən hadisələr və memarlıq üslubları haqqında da oxucuya ətraflı məlumat verilir. Qeyd edilir ki, Azərbaycan ən mühüm mədəniyyət mərkəzinə çevrilən Bakı Şərqdə bir çox yeniliklərin baş verdiyi məkan olub. Həm mədəniyyət, həm də sənaye sahəsində bir çox ilklər bu şəhərdə gerçəkləşib. 2000-ci ildə isə Bakının qədim mərkəzi sayılan İçərişəhər Şirvanşahlar sarayı və Qız qalası abidələri ilə birgə UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib. Bütün bu özəlliklər dünyanın müxtəlif yerlərindən turistləri Bakıya cəlb edir. Bakıda həm istirahət edərək gözəl vaxt keçirmək, həm də bu şəhərin çoxlu yeni və qeyri-adi cəhətlərini görüb öyrənmək mümkündür.





Azerbaijan

Baku- City with ancient origins

Azerbaijan's capital city offers an endless delight for travelers enthusiastic about history, art and architecture. From modern architecture to the ancient streets, there are many charming places to visit in the City of Winds. Baku is filled with highly regarded museums, breathtaking skyscrapers and magnificent historical sites. The city combines the best traditions and modernity.

With its rich historical and cultural heritage, it is a great destination for travelers wishing to get an unforgettable experience. One of the best things about traveling is exploring the history of a given place.

The history of Baku goes into deep antiquity, although the exact date of its occurrence is still unknown. People inhabited the city of Baku and Absheron peninsula since very ancient times and created settlements here. Located in the south-west of Baku, Gobustan was one of the cradles of civilization. Gobustan is home to one of the world's largest ancient petroglyphs collections. Settled since the 8th millennium BC, the area contains more than 600,000 distinct paintings, going as far back as 20,000 years to as recent as 5,000 years ago.

The pictures dating back to 8 millenniums reflect different hunting scenes, ceremonial and ritual processes of the habitants of these places. The archaic pre-Zoroastrian burial places found in 1888 during the digging of the foundation pit of the base of the former Alexander Nevsky Cathedral in the place of an old Muslim cemetery speak of the city's ancient origin as well. Ancient burials in the form of stone boxes as well as a tomb in the shape of a big tandir (fireplace) were discovered there. Six or seven human skeletons were found in the tomb. Clay bowls were placed shape in front of the skeletons. This was a family tomb going to the times of the tribal system of the society.

At the same time, writings on the walls in Absheron and Gobustan of 12,000 years ago, archaeological findings, as well stone writing of August Guy Octavi about military camps made around Baku by Emperor of Rome Pompeii and Lukul in order to occupy Caucasus in the 1st century BC prove that Baku is an ancient city with rich history. Given all these facts, the city's age is more than 5,500 years.

Baku was one of the main cities of the Shirvanshahs state (12th cent.), the Safavid state in (16th cent.), the Ottoman Empire in the 17th century, the Baku khanate (18th cent.). Today Baku is one of the most beautiful cities located at the joint of Europe and Asia. Modern buildings spring up between ancient monuments.

# Azərbaycan diplomatiyası qarşısında Paşinyan diz çökdü

## *İlham Əliyev: "Əsas odur ki, danışıqların formatı dəyişilməz qalıb"*

***Məlum olduğu kimi, uzun fasilədən sonra martın 29-da Vyanada Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında Qarabağ konfliktinin həllinə dair görüş keçirildi. Politoloqların sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyev Vyanada baş tutan görüşdən sonra reallıqlara və dövlət başçısının verdiyi açıqlamalara əsaslanaraq, vurğulamaq lazımdır ki, bu görüş zamanı iki məqam, xüsusilə əhəmiyyətlidir. Bunlardan biri Dağlıq Qarabağ konfliktinə dair Ermənistan baş naziri Nikol Paşiyanla, demək olar ki, ilk müzakirədir. Bir məqamı da, qeyd edək ki, buna qədər görüşlər olub, amma bu təmaslar ayaqüstü olub.***

Politoloq Fikrət Sadıqovun sözlərinə görə, buna qədər Paşinyan bəyan edirdi ki, Dağlıq Qarabağ separatçıları adından danışmayacaq, onların özləri danışıqlar formatına qatılmalıdırlar: "Vyana görüşü ilə Paşinyanın bəyanatı faktiki puça çıxmış oldu. Real olaraq Paşinyan məcbur oldu ki, Azərbaycan dövlət başçısı ilə danışıqlarda iştirak etsin və Qarabağ konfliktinin müzakirəsinə qatılsın. Təbii ki, danışıqlar prosesinin formatı dəyişilməz olaraq qaldı. Prezident İlham Əliyev bu məqamı, xüsusilə qeyd edərək, bildirdi ki, danışıqlar prosesinin formatını dəyişmək olmaz, bununla bağlı beynəlxalq strukturların da qərarı var. Əgər bura üçüncü tərəf cəlb olunursa, bu, Azərbaycanın razılığı ilə ola bilər. Azərbaycan isə buna razılıq verməyib. Bu görüş, faktiki olaraq, Paşinyanın danışıqlar formatını dəyişmək məqsədilə atdığı addımları puç etdi".

F.Sadıqova görə, görüşün müsbət tərəfi ondan ibarətdir ki, ilk dəfə Ermənistanın yeni baş naziri ilə problem ciddi müzakirə edilib: "Eyni zamanda, erməni tərəfinə Azərbaycanın qəti və prinsipial mövqeyi çatdırılıb. Yəni Paşinyan başa düşdü ki, işğal edilən torpaqlar Azərbaycanın tarixi torpaqlarıdır və onu azad etməyənə qədər, heç bir irəliləyiş ola bilməz. Prezident qeyd etdi ki, bu, danışıqlar prosesinə yeni impuls verdi. İlk dəfə danışıqlar prosesində biz erməni tərəfini bu formatda hərəkət etməyə məcbur etdik. Onlar müxtəlif ziddiyyətli bəyanatlarla çıxış edirdilər, bəyan edirdilər ki, danışıqlarda iştirak etməyəcəklər, prosesə üçüncü tərəf cəlb edilməlidir və s. Amma onların bu məqsədi alınmadı. İlk görüşü müsbət qiymətləndirirəm və hesab edirəm ki, bundan sonra xarici işlər nazirləri səviyyəsində effektiv addımlar olmalıdır. Çünki bu addımların nəticəsində dövlət başçılarına problemin həllinə dair təkliflər hazırlanıb verilməlidir".

### Qabil Hüseynli: "Bütün görüşlərdə olduğu kimi, Vyana görüşündə də Azərbaycan Prezidentinin inamlı və qətiyyətli mövqeyi özünü bir daha sübut edir"

Politoloq Qabil Hüseynli bildirib ki, aparılan danışıqlar hələ konkret nəticələrə səbəb olmasa da, müsbət adlandıra biləcəyimiz bir neçə məqamı özündə əks etdirir: "Əvvəla, danışıqlar prosesi əvvəlki kimi kortəbii vəziyyətdə aparılmır, indiyə qədər ATƏT-in Minsk Qrupu çərçivəsində aparılan danışıqlar kimi, ciddi və sabit axara yönəlir. Yəni indiyə qədər Paşinyan müəyyən şıltaqlıqlar, ölçülüb-biçilməmiş bəyanatlar verirdisə, Vyana görüşündən sonra danışıqlara ziyan gətirən bu cür hallara son qoyulur. İndiyə qədər XİN rəhbərlərinin görüşünü də nəzərə alsaq, danışıqlar prosesi normal axara daxil olub. Mahiyyət üzrə Azərbaycan və Ermənistan arasında ciddi danışıqlar prosesinə qədəm qoyulub. Bu proses, hələ ilkin mərhələdə olsa da, əvvəlki danışıqların davamı kimi dəyərləndirilə bilər. Ən diqqətçəkən məqam isə, ondan ibarətdir ki, Paşinyan danışıqlara gedən zaman burada qondarma rejimin tərəf kimi çıxış etməsi ilə bağlı məsələni gündəmə gətirəcəyini bildirsə də, bu görüşdə həmin məsələlər ya gündəmə gəlməyib, ya da onun ağzından vurularaq bu məsələnin müzakirəsi edilməyib. Burada Azərbaycan Prezidentinin inamlı və qətiyyətli mövqeyi özünü bir daha sübut edir".



Q.Hüseynli, onu da vurğulayıb ki, tərəflər əsas diqqəti humanitar əlaqələrin genişləndirilməsi ilə bağlı məsələyə yönəldiblər: "XİN rəhbərlərinin görüşündə bu ifadə xalqların sülhə hazırlanması kimi təqdim olunmuşdu. Yəni əhali sülhə hazırlanmalıdır və danışıqlar prosesində əldə ediləcək nəticələrlə bağlı əhaliyə məlumat ötürülməli, mümkün olan nəticələrə hazırlanmalıdır. Əlbəttə, bu, o demək deyil ki, Azərbaycan tərəfi hansısa kompromisə getmək istəyir. Tərəflərin sülhə hazırlanması prosesində Azərbaycan xalqına gözləmədiyi nəticələr təqdim edilməyəcək. Azərbaycan Prezidentinin söylədiyi kimi, danışıqlar prosesində Azərbaycan üçün ən önəmli məsələ beynəlxalq səviyyədə tanınan Azərbaycan ərazilərindən beynəlxalq hüquq, Helsinki Yekun Aktı və BMT TŞ-nın icra edilməmiş 4 qətnaməsinə uyğun olaraq, erməni ordusunun dərhal və qeyd-şərtsiz çıxarılmasıdır. Danışıqlar da bu tələb ətrafında cərəyan etməlidir. Azərbaycan öz ərazi bütövlüyünün təmin edilməsi prinsipindən vaz keçəsi deyil".

Politoloqun sözlərinə görə, Azərbaycan Prezidenti danışıqlara yeni start verildiyindən söz açır: "İndiyə qədər Sarkisyan və Koçaryanla aparılan danışıqlardakı bəzi müddəaların üzərindən Paşinyan ötüb keçməyə çalışırdı. Amma bütün bunlara baxmayaraq, bu danışıqlar Minsk Qrupu tərəfindən qeydə alınıb. Heç kəs indiyə qədər sərf edilmiş vaxtın itirilməsinə və yenidən Paşinyanın zövqünə uyğun olaraq, danışıqları 0 nöqtəsindən başlamağa hazır deyil. Belə görünür ki, Paşinyan da vəziyyətin necə olduğunu anlamağa başlayıb. Belə ki, Azərbaycan Prezidenti danışıqlar prosesinin yenidən ciddi start mərhələsinə keçməklə gələcəkdə nəticəli danışıqlar prosesinin başlana biləcəyi ehtimalına da ciddi işarə vurub".

### Azərbaycan Vyanada diplomatik baxımdan Ermənistan üzərində qələbə qazandı

Politoloq Tofiq Abbasov bildirib ki, Vyana görüşünə qədər cidd-cəhdlə danışıqlardan yayınan Paşinyan, artıq həmsədrlərin yekdil fikri ilə meydana çıxıb: "Yeni Paşinyan istəyindən asılı olmayaraq, artıq danışıqlar prosesindədir və öz öhədliyini yerinə yetirmək məsuliyyəti altındadır. Ermənistan problemin çözülməsində cavabdeh - iştirakçı tərəfdir, yeni İrəvanın öhdəlikləri var. Əgər Nikol Paşinyan bu yaxınlara qədər Qarabağ erməniləri adından danışıqlarda iştirakına səlahiyyətinin olmadığını bəhanə gətirərək, qondarma ideya ilə məsuliyyətdən boyun qaçırırdısa, indi bunu edə bilməyəcək. Hesab edirəm ki, Azərbaycan Vyanada diplomatik, baxımdan, Ermənistan üzərində qələbə qazandı".

Politoloq görüşə qədər İrəvanın Bakıya qarşı məkrli təxribatının uğursuzluğa düçar olmasından da danışıb: "Azərbaycan əsgərinin şəhid edilməsi, təbii ki, düşünülmüş bir akt idi. Məqsəd Azərbaycanı Vyana görüşündən yayındırmaq və sülh prosesinə kölgə salmaq idi, ancaq alınmadı".

Politoloqun sözlərinə görə, Ermənistanın baş naziri əvvəlkitək danışıqlarda münaqişənin həlli mexanizmlərini müzakirə etməkdən yayınır, çünki üzərinə məsuliyyət götürmək istəmir: "Paşinyan danışıqlarda, əsasən, "mövcud durumu, atəşkəsi necə qoruyaq" bəndi ətrafında müzakirə aparmaq istəyir. Bu, danışıqların sıfır nöqtəsinə qayıdışdır. Azərbaycanı bu bəndlər maraqlandırmır və maraqlandırmamalıdır. Azərbaycan, prinsipial olaraq, "Dağlıq Qarabağ ətrafındakı rayonlar nə zaman boşaldılacaq?", "Qaçqınların geri qayıtması müddəti nə qədər çəkəcək?" və sair bəndlərin müzakirəsində maraqlıdır".

Politoloq onu da vurğulayıb ki, bu gün Yerevandakı "Əsgər anaları" komitəsi də fəallığını azaltmır, gənclərin Dağlıq Qarabağda xidmətinə etiraz edir: "Paşinyan oğlunu Dağlıq Qarabağa xidmətə göndərəndə, elə bilirdi ki, bununla siyasi xal qazanacaq və başqalarına nümunə olacaq. Ancaq bu, olmadı. Ermənistanın təmas xəttində nə qədər çox itkisi olarsa, Ermənistan ordusunda və cəmiyyətində daha çox təlatümlərin şahidi ola bilərik".

### Paşinyan qaşınır...

Politoloqların sözlərinə görə, küçədən baş nazirlik kürsüsünə gələn Paşinyan son anda erməni xalqının əli ilə də küçəyə atılacaq. Belə bir misal var, "meymunun boğazına su çatanda, balasını ayağının altına alar". Görünən odur ki, aclıq və səfalət içində çırpınan erməni xalqı elə bir vəziyyətə çatdı ki, kütləvi şəkildə küçələrə axışaraq, hakimiyyətə qarşı aksiyaların keçirilməsi də bunu bir daha sübut edir.

Politoloqlar onu da vurğulayıblar ki, Paşinyan danışıqlar formatının dəyişməsi ideyasından əl çəkməyib: "Təsadüfi deyil ki, Vyanaya getməzdən əvvəl, o, separatçıları sakitləşdirmək üçün onların təmsilçisi Bako Saakyanla telefonla danışdı. Paşinyan Qarabağ separatçılarından və ölkəsindəki Qarabağ klanından qorxduğu üçün hər dəfə belə edir. Separatçılar Paşinyana etibar etmirlər. Ona görə də, atəşkəsi zaman-zaman pozurlar. Proses elə il ərzində belə də davam edəcək".

Belə olan halda ...

### Paşinyan nə istəyir: sülh, yoxsa müharibə?

Ermənistanın baş naziri Nikol Paşinyan Qarabağ münaqişəsinə dair mövqeyinin ondan əvvəlki hakimiyyətlərin yürütdüyü siyasətlə müqayisə edilməsini istəmir. O, son vaxtlar apardığı kadr islahatları və Azərbaycan Prezidenti ilə intensiv qeyri-rəsmi görüşləri fonunda tez-tez səslənən "sülh əvəzinə ərazilər" tezisi ilə bağlı erməni cəmiyyətində və ekspert dairələrində yaranan narahatlığa münasibət bildirərkən belə deyib.

Erməni politoloqları da bildirirlər ki, ölkədə yaranmış kritik vəziyyətə səbəb Paşinyanın gah nala-mıxa vurmasıdır. Çünki Paşinyanda dəqiq konseptual mövqeyi hələ formalaşmayıb və onun ora-bura vurnuxmasının heç bir əhəmiyyəti yoxdur".

Ümumiyyətlə, real vəziyyəti təhlil edən ekspertlərin, demək olar, hamısının mövqeyi bundan ibarətdir ki, Ermənistanın bir dövlət olaraq, mövcudluğu və gələcəyi Dağlıq Qarabağ amilindən asılıdır. Azərbaycan torpaqlarını işğal altında saxlayıb, qonşu dövlətlərə ərazi iddiası irəli sürmək isə erməni dövlətinin gələcəyini təhlükəyə salır. Bu baxımdan, Ermənistanda vəziyyətin düzəlməsinin əsas şərtlərindən biri və ən başlıcası, Yerevanın öz qoşunlarını Azərbaycanın işğal olunmuş torpaqlarından çıxarmasıdır. Çünki bu dövlətin gələcəyi Azərbaycanla qonşuluq prinsiplərinə əməl etməkdən keçir.

**A.SƏMƏDOVA**

# Dövlət Sərhəd Xidmətinin Akademiyasında təşkil olunan akademik kursların məzunlarına sertifikatlar verilib

***Dövlət Sərhəd Xidmətinin (DSX) Akademiyasında təşkil olunan akademik kursların növbəti məzunlarına sertifikatların verilməsi münasibətilə təntənəli mərasim keçirilib.***







DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının dövlət himninin səslənməsi ilə başlayan mərasimdə çıxış edən Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev bu tədbirin ulu öndər Heydər Əliyevin əsasını qoyduğu milli sərhəd mühafizəsi strategiyasının Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilməsinin növbəti təntənəsi olduğunu qeyd edib.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dəstəyi ilə DSX-də mükəmməl tədris sisteminin formalaşdırıldığı xüsusi vurğulanıb. DSX-nin Xüsusi Məktəbində, Akademiyasında və akademik kurslarda 14 illik ümumi təhsil müddətində zabit heyətinin milli dövlətçiliyə sədaqət ruhunda tərbiyəsi, peşəkar zabit və vətənpərvər vətəndaş kimi yetişdirilməsi, nəticə etibarilə Vətən hüdudlarının layiqli müdafiəçisi kimi formalaşdırıldığı qeyd olunub.

Bildirilib ki, bu mükəmməl hərbi təhsil sisteminin əsasını təşkil edən DSX Akademiyasının 2007-ci il iyunun 12-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən yaradılması sayəsində ali hərbi təhsilli sərhədçi zabit kadrlarının, komandir və qərargah zabitlərinin, hərbi elmi işçilərin hazırlanması, dövlət sərhədlərinin mühafizəsi və hərbi iş sahəsində elmi tədqiqatların aparılması sahəsində önəmli nəticələrin əldə olunub, mükəmməl elmi-pedaqoji potensial və maddi-texniki baza formalaşdırılıb.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə əsaslı təmir edildikdən sonra ən müasir tədris bazası ilə təmin olunaraq Dövlət Sərhəd Xidmətinin balansına verilmiş Xüsusi Məktəbdə 7 il ərzində DSX Akademiyası üçün layiqli kursantların hazırlanması, bu təhsil ocağına daxil olmaq barədə müraciətlərin sayının ildən-ilə əhəmiyyətli dərəcədə artması, 2019-cu ildə bir kursant yerinə 26 namizədin müraciət etməsinin sərhədçi peşəsinə böyük marağın göstəricisi olduğu bildirilib.

Akademik kursların bitirilməsinə həsr olunmuş təntənəli tədbirin Azərbaycan hərb tarixinin zəfər günləri olan 2016-cı ilin Aprel döyüşlərinin ildönümünə təsadüf etməsi ilə əlaqədar Vətən uğrunda həyatlarını qurban vermiş hərbi qulluqçuların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Xüsusi vurğulanıb ki, həmin günlərdə Ermənistan ordusunun hərbi birləşmələrinin təxribatının qarşısının alınması zamanı Azərbaycan əsgərinin, çavuşunun, gizirinin, zabitinin qəhrəmanlığı, cəsarəti və rəşadəti sayəsində düşmənin alınmaz bildiyi döyüş mövqeləri, qərargahlar və hərbi hissələr darmadağın edilib. Azərbaycanın hərbi qüdrətinin nümayiş etdirilməsi, Azərbaycan sərhədçilərinin bu qələbənin əldə olunmasına ciddi töhfə verməsi, şəxsi heyətimizin Prezident İlham Əliyevin Ali Baş Komandanlığı altında torpaqlarımızı işğaldan azad etmək üçün hər bir döyüş tapşırığının icrasına daim hazır olmaları xüsusi qeyd olunub.

Akademik kursları bitirmiş zabitlər Vətənə sədaqətlə xidmət edəcəklərinə, onlara göstərilən etimadı nümunəvi xidmətləri ilə doğruldacaqlarına, dövlət sərhədlərimizin etibarlı mühafizəsini təmin etmək üçün bilik və bacarıqlarını əsirgəməyəcəklərinə söz veriblər. Sonda ulu öndər Heydər Əliyevin möhtəşəm abidəsi önündə xatirə şəkli çəkilib.

## Azərbaycanın Baş naziri Rusiyanın sənaye və ticarət naziri ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov aprelin 4-də Rusiya Federasiyasının sənaye və ticarət naziri Denis Manturovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Baş nazir Novruz Məmmədov Azərbaycan ilə Rusiya arasında dostluq və mehriban qonşuluq münasibətlərinin mövcud olduğunu bildirərək deyib: "Qarşılıqlı hörmət prinsiplərinə əsaslanan Azərbaycan-Rusiya münasibətləri strateji tərəfdaşlıq xarakteri daşıyır və bütün sahələri əhatə edir. Əminəm ki, bu əlaqələr gələcəkdə daha da inkişaf edəcək".

Baş nazir Novruz Məmmədov Bakıda keçirilən Azərbaycan-Rusiya Sənaye Əməkdaşlığı Forumunun önəmini vurğulayaraq bu tədbirin, həmçinin sənaye və ticarət naziri Denis Manturovun rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin iqtisadi əlaqələrimizin daha da genişlənməsinə xidmət edəcəyinə əminliyini bildirib.

Azərbaycanda qeyri-neft sənayesi sahələrinin davamlı inkişafına, sənaye sahəsində sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsinə xüsusi diqqət göstərildiyini bildirən Baş nazir ölkəmizdə yaradılan sənaye parkları, o cümlədən Pirallahı Sənaye Parkı barədə ətraflı məlumat verib.

Azərbaycana səfərindən, keçirdiyi görüşlərdən məmnunluğunu ifadə edən rusiyalı nazir aparılan müzakirələrin ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsinə təkan verəcəyinə inamını ifadə edib. Denis Manturov bildirib ki, ölkələrimiz arasında mövcud olan konstruktiv yanaşmalar əlverişli biznes mühitinin formalaşmasında önəmli platforma rolunu oynayır. Söhbət zamanı neft-kimya, maşınqayırma, aviasiya, əczaçılıq sahələrində əməkdaşlığa və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

## Elmar Məmmədyarov: "Avropa İttifaqı ilə yeni sazişə dair danışıqlarımızı yekunlaşdırmağa çox yaxınıq"




Bu iclası ikitərəfli və regional gündəliyimizin maraqlı kəşişməsi zamanında təşkil etdik. Münasibətlərimizdə elə bir sıxlıq var ki, mən bunu çox müsbət və siyasi nöqteyi-nəzərdən yaradıcı hesab edirəm. Bu, digərləri ilə olan münasibətlərimizdən çox fərqlidir. Belə ki, bu, Avropa İttifaqı üçün də regionda digərləri ilə münasibətlərindən müsbət mənada fərqli olmalıdır. Biz siyasi gündəliyimizi dəstəkləməliyik. Biz imkanlarımızı maksimum səviyyəyə çatdırmağa ehtiyac duyuruq.

AZƏRTAC xəbər verir ki, bu fikirləri xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycan-Avropa İttifaqı Əməkdaşlıq Şurasının 16-cı iclasında bildirib.

Nazir deyib: "İlk növbədə, bizim yeni ikitərəfli sazişimizlə (layihə) necə və haraya gedəcəyimizi müzakirə etməyə ehtiyacımız var. İnanıram ki, danışıqlarımızı yekunlaşdırmağa çox yaxınıq. Bu yaxınlarda biz danışıqları onun bütün üç hissəsi üzrə sinxronlaşdırmağa müvəffəq olmuşuq. Belə ki, artıq 90 faizi razılaşdırıldığına görə bu gün bizim olduqca yaxşı imkanımız var. Son vaxtlar biz bir sıra dəyirmi masalar və videokonfranslar keçirmişik və eyni zamanda, qarşıdan gələn günlərdə bunu davam etdirməyə çalışırıq. Mən danışıqları tezliklə yekunlaşdırmaq istiqamətində birgə imkanlarımızın mövcudluğu ilə bağlı müsbət fikirdəyəm. Lakin əlbəttə ki, Azərbaycan üçün ən vacibi mahiyyət məsələsidir.

Biz, həmçinin dialoqumuzun strateji əhəmiyyət kəsb edən məsələlərini də əhatə edəcəyik. Bunlar enerji və nəqliyyat ilə bağlı məsələlərdir. Bildiyiniz kimi, Azərbaycan regionda və kənarda bir sıra əlaqələndirmə layihələrinin təşəbbüskarı kimi çıxış edir. Bütün bunların məqsədi ticarət kanallarının şəbəkəsini yaratmaq və regionda siyasi və iqtisadi sabitliyi, rifahı təmin etməkdir. Faktiki olaraq, biz nəqliyyat sahəsində Aİ ilə ayrıca dialoqa başlamışıq. Həmçinin biz vahid aviasiya üzrə sazişlə bağlı danışıqlar aparırıq. Hökumət və sənaye sahəsindən olan tərəfdaşlarımızla birlikdə biz enerji üzrə tamamilə yeni bir mənbədən - Azərbaycandan Aİ bazarına, onun sənayesinə və insanlarına daha çox təbii qazın çatdırılmasını mümkün edəcək Cənub Qaz Dəhlizinin tikintisini yekunlaşdırırıq. Azərbaycan bunu mümkün etdi. Aİ bazarını Azərbaycandan daha çox qaz alması üçün daha cəlbedici etmək istəyirsə, tərəfdaşlarımız daha çox səy göstərməlidir.

Yalnız imkanlarımız deyil, həm də çətinliklərimiz var. Buna görə də bu yaxınlarda Təhlükəsizlik Dialoqunu da başlatmışıq. Biz təhlükəsizlik, terrorizmə və ekstremizmə qarşı mübarizə və digər bir çox məsələlərdə oxşar təsəvvürlə tərəfdaşlığımızı necə siyasi cəhətdən dəstəkləyə biləcəyimizi görmək istəyirik. Qeyri-qanuni miqrasiya ilə birlikdə bu məsələlər hamımız üçün ciddi narahatlıq doğura bilər. Burada xüsusilə nəzərə çatdırmaq istərdim ki, beynəlxalq hüquq prinsiplərinin davam edən pozuntusunun nəticələrinin aradan qaldırılması istiqamətində müvəffəqiyyətsizlik, habelə münaqişənin həlli kontekstində bu prinsiplərin yanlış təfsir olunması və selektiv tətbiqi qaydalara əsaslanan Avropa düzənini pozur. Hesab edirəm ki, əgər Avropa İttifaqı qonşuluq siyasətini inkişaf etdirirsə və regionda digər ölkələrə gəldikdə buna siyasi və maliyyə baxımından bu qədər çox sərmayə qoyursa onda əlbəttə ki, qaydalara əsaslanan bir yanaşma olmalıdır."

# 2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaq

*Prezident İlham Əliyev: "Bizim maliyyə vəziyyətimiz yaxşılaşır, sabit olaraq qalır və bu, əlbəttə, bizə imkan verir ki, əlavə gəlirləri, ilk növbədə, vətəndaşların sosial müdafiəsinə yönəldək"*



***Azərbaycanda əhalinin, demək olar ki, bütün təbəqələrini əhatə edən sosial siyasət həyata keçirilir. Dövlət başçısı İlham Əliyevin birbaşa nəzarəti ilə həyata keçirilən sosial siyasətin mərkəzində, məhz insan amili və vətəndaşların mənafeyi dayanır. 2019-cu ilin əvvəlindən başlayaraq ölkə vətəndaşlarının sosial rifahının yaxşılaşdırılması istiqamətində mühüm addımlara start verilib. Bu proses davamlı xarakter daşıyır. Prezident İlham Əliyev nitqində bəyan edib ki, 2019-cu il sosial inkişaf və əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır.***

Müşavirədə dövlətimizin başçısının sosial və iqtisadi məsələlərlə bağlı vurğuladığı ciddi məqamlar, artıq reallığa çevrilməkdədir. Prezident İlham Əliyev nitqində bildirib ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır: "Bizim maliyyə vəziyyətimiz yaxşılaşır, sabit olaraq qalır və bu, əlbəttə, bizə imkan verir ki, əlavə gəlirləri, ilk növbədə, vətəndaşların sosial müdafiəsinə yönəldək. Mən bu məsələ ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişəm. Hələ keçən ilin sonunda bildirmişəm və bu ilin əvvəlində demişəm ki, biz əlavə gəlirləri, ilk növbədə, vətəndaşların sosial müdafiəsinə yönəltməliyik. Çünki bu, bizim üçün prioritet məsələdir, vətəndaşların sosial rifahının yaxşılaşdırılması ən başlıca vəzifəmizdir. Bu istiqamətdə artıq bir çox ciddi addımlar atılıb və atılacaq. Ümumiyyətlə, bildirmək istəyirəm ki, 2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaq."

Deyilənlərin təsdiqi olaraq vurğulamaq yerinə düşər ki, son günlər Prezident İlham Əliyev cari ilin əvvəlindən ölkə vətəndaşlarının sosial müdafiəsinin gücləndirilməsinə, gəlir imkanlarının artırılmasına hədəflənən bir sıra mühüm sənədlər imzalayıb. Cənab İlham Əliyevin prezident seçkilərindən sonra imzaladığı ilk Fərman şəhidlərin vərəsələrinə veriləcək 11 min manat ödənişlə bağlı idi. Hazırda 12 min 200-dən çox şəhid ailəsinə dövlət tərəfindən 11 min manat ödəniş edilir və bu ilin sonuna qədər bu proqram icra olunacaq. Bununla yanaşı, şəhid ailələrinin müavinətlərinin artırılması ilə bağlı imzalanan Fərmanla bu kateqoriyadan olan insanların müavinətləri 242 manatdan 300 manata çatdılıldı. Dövlətimizin başçısının vurğuladığı kimi, maddi imkanlarımız artdıqca, əlbəttə ki, daim bu məsələ diqqət mərkəzində olacaqdır: "Əfqanıstanda həlak olanların ailələrinə verilən müavinət də bu yaxınlarda artırılmış, 220 manatdan 300 manata qaldırılmışdır. Bu da ədalətli yanaşmadır. Bir sözlə, bütün bu məsələlərlə bağlı, biz ardıcıl olaraq, öz siyasətimizi aparırıq. Maddi imkanlarımız artdıqca, ilk növbədə, bu məsələləri həll edirik."

25 fevral 2019-cu il tarixində Prezident İlham Əliyev "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlərə dair" növbəti Sərəncam imzalayıb. Sənəddə də vurğulandığı kimi, Sərəncamın imzalanmasında məqsəd əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində tədbirləri davam etdirmək və bu tədbirlərin əhatə dairəsini daha da genişləndirməkdir. Əməkhaqlarının artırılması tendensiyası 2019-cu ildə də davam etdirilir. Prezident İlham Əliyev 7 fevral 2019-cu il tarixində "Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" Sərəncam və 8 fevral 2019-cu il tarixində "Minimum aylıq əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 3545 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" müvafiq Sərəncam imzalayıb. Qeyd etmək yerinə düşər ki, son 15 ildə Azərbaycanda minimum əməkhaqqı dəfələrlə artırılıb.

Dövlətimizin başçısı adıçəkilən müşavirədə vurğulayıb ki, minimum pensiyalarla bağlı çox ciddi qərar qəbul edildi: "Minimum pensiyaların məbləği də təxminən 38 faiz, bir qədər çox artmışdır - 116 manatdan 160 manata qədər. Bu gün minimum pensiyanın səviyyəsinə görə Azərbaycan MDB məkanında ikinci yerdədir. Ancaq onu da bilməliyik ki, bu, son hədd deyil. Əlbəttə ki, əməkhaqlarının və pensiyaların artırılması gündəlikdə duran əsas məsələlərdən biridir. Minimum pensiyanın artırılması 223 min insanın pensiya təminatını yaxşılaşdıracaqdır. Bu il biz minimum əməkhaqqını əhəmiyyətli dərəcədə artırdıq - 38 faiz. Bu, böyük artımdır, 130 manatdan 180 manata qalxıbdır. Bu, 600 min insanı əhatə edir. Ancaq o da həqiqətdir ki, bu rəqəm bizi heç də razı sala bilməz. Ona görə müvafiq göstərişlər verildi ki, minimum əməkhaqqının gələcək artımı ilə bağlı təkliflər hazırlansın. İndi bunun maliyyə yükünü, əlbəttə ki, biz qiymətləndirməliyik. Əlbəttə ki, gələcəkdə minimum əməkhaqları və pensiyalar ardıcıl olaraq artırılacaq."

Fevralın 26-da isə Prezident İlham Əliyev məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin artırılması haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin məbləği 2019-cu il aprelin 1-dən 50 faiz artırılacaq. Məcburi köçkünlərlə bağlı bu il çox geniş inşaat proqramlarının icra ediləcəyini bildirən dövlətimizin başçısı vurğulayıb ki, əgər keçən il 5900 köçkün ailəsi üçün mənzillər, evlər tikilmişdirsə, bu il 6 mindən 7 minə qədər köçkün ailəsi yeni mənzillərlə, evlərlə təmin ediləcək: "Şəhid ailələri üçün bu il 800 mənzil alınıb onlara veriləcək. Keçən il 626 mənzil verilmişdir. Yəni iki il ərzində, 1400-dən çox mənzil şəhid ailələrinə veriləcək. Bu günə qədər mənzil almayan bütün şəhid ailələri, əminəm ki, növbəti illər ərzində, yaxın gələcəkdə mənzillərlə təmin ediləcəklər. Onu da bildirməliyəm ki, bu günə qədər 6500-dən çox şəhid ailəsi dövlət tərəfindən mənzillərlə və evlərlə təmin edilmişdir."

Ölkə Prezidenti İlham Əliyev müşavirədə diqqət yetirdiyi məsələlərdən biri də vətəndaşları narahat edən problemli kreditlərlə bağlı idi: "Bu məsələ artıq neçə vaxtdır ki, müzakirə olunur. Hökumət üzvlərinə müvafiq göstərişlər verilmişdir. Keçən ildən başlayaraq çox fəal iş aparılır və təkliflər paketi hazırlanır. Bilirəm ki, Milli Məclisdə də bu məsələ müzakirə olunur. Müxtəlif təkliflər səsləndirilir. Biz bu məsələni həll etməklə, əsas vəzifəni vətəndaşların rifah halının yaxşılaşmasında, onların maliyyə yükünün azaldılmasında görürük." "Hər bir azərbaycanlının Prezidenti" olduğunu bir daha təsdiqləyən dövlətimizin başçısının fevralın 28-də imzaladığı "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanın icrası əhalinin rifah halının və sosial müdafiəsinin yüksəlməsinə və layiqli həyat səviyyəsinin təmin edilməsinə istiqamətlənib.

Bu və digər faktlar Azərbaycan dövlətinin sosial siyasətinin davamlı səciyyə daşıdığı barədə konkret təsəvvür yaradır. Ümumiyyətlə, bu gün Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar öz miqyasına, təsir dairəsinə, əhəmiyyətinə görə heç bir ölkədə müşahidə olunmur. Bütövlükdə, 2 milyon 200 min əhali dövlətin sosial təşəbbüslərinin icrasından böyük dərəcədə faydalanacaq. Dövlətimizin, ən əsası, ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi sosial siyasət xalq tərəfindən yüksək qiymətləndirilir. Bu, ilk növbədə, Cənab Prezidentin Azərbaycan dövlətinin öz vətəndaşına olan diqqət və qayğısının təzahürüdür.

***"Səs" Analitik Qrupu***

# Azərbaycan dövlətinin siyasətinin əsasında xalqın rifahının yüksəlməsi dayanır



**Dünən YAP Yasamal rayon təşkilatında Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci ildə növbəti dəfə Prezident seçilməsinin 1 illik fəaliyyəti və son 3 ay ərzində dövlət başçısının gördüyü işlərə həsr olunmuş tədbir keçirildi.**

Tədbiri giriş sözü ilə açan YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov Prezidentin son 1 il ərzində gördüyü işlərə nəzər saldı. Qeyd etdi ki, ölkənin inkişafında əsas rol oynayan sabitliyin möhkəmlənməsi Azərbaycanda iqtisadi imkanların genişlənməsi üçün biri-birindən əhəmiyyətli layihələrin icrasını sürətləndirir: “Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan ümummilli inkişaf strategiyası hər bir sahənin paralel inkişafını ən yüksək səviyyədə təmin edib və bu, davam etdirilməkdədir. Bu iqtisadi inkişaf ölkəmizdə mütərəqqi sosial siyasətin həyata keçirilməsi, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində əhəmiyyətlidir. Sosial siyasətin uğurla həyata keçirilməsinin məntiqi nəticəsi olaraq, sosial müdafiə və təminat sistemi gücləndirilib”.

O bildirdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasi kurs bir daha sübut etdi ki, ölkəmizdə islahatlar davamlı xarakter daşıyır. 2019-cu ilin əvvəlindən başlayaraq, respublikamızda islahatların əhatə dairəsi daha da genişləndirilib. Təbii ki, görülən işlər, aparılan siyasət göz önündədir.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Ülvi Quliyev qeyd etdi ki, Azərbaycanda son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində, bütün sahələrdə tarixi əhəmiyyətə malik olan möhtəşəm nailiyyətlər əldə olunub:”Dövlət başçısının siyasi iradəsi əsasında müəyyənləşdirilən strateji kursa uyğun olaraq, ölkəmizdə cari ilin əvvəlindən sosial sahədə çox ciddi addımlar atılıb. Həqiqətən də, bu gün Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar öz miqyasına, təsir dairəsinə və əhəmiyyətinə görə heç bir ölkədə müşahidə olunmur. Bu, ilk növbədə, ölkə başçısının, Azərbaycan dövlətinin öz vətəndaşına olan diqqət və qayğısının təzahürüdür”.

Tədbirdə çıxış edən “Səs” qəzetinin baş redaktoru Bəhruz Quliyev 3 il əvvəl baş verən aprel döyüşlərinə nəzər salaraq, silahlı qüvvələrimizin işğalçı ermənilərin təxribatlarının qarşısının alınmasında qəhrəmanlıq göstərdiyini diqqətə çatdırdı. Qeyd etdi ki, aprel zəfəri Azərbaycan Ordusunun qələbəsi kimi tarixə düşdü və Ermənistanın təcavüzkar siyasətini iflasa uğratdı: “Həmin dövrdən artıq 3 il ötür. Aprel zəfəri ordumuzun, silahlı qvvələrimizin gücünü, vətən uğrunda hər an fədakarlığa hazırlığını göstərmiş oldu. Azərbaycan Ordusu işğal altında olan torpaqlarını azad etməyə qadir olduğunu göstərdi”.

B.Quliyev vurğuladı ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə şücaət göstərmiş gənclərin tanıdılması ilə bağlı layihələrin həyata keçirilməsi, qəhrəmanlıq nümunələrinin gənclər arasında təbliği sahəsində ardıcıl işlər görülür: “Bu gün dünyanın ən müasir və inkişaf etmiş ölkələri sırasında siyasi və iqtisadi çəkisinə görə, yer alan Azərbaycan dünyanın ən nəhəng ölkələri ilə müqayisə olunacaq dərəcədə işlər görüb. Müasir modern dövlət olaraq tanınan ölkəmiz Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində, getdikcə daha da yenilənir, iqtisadi islahatları reallaşdıran və innovativ inkişafa yol açan dövlətə çevrilir”.



Tədbirdə çıxış edən millət vəkili Elşad Həsənov son illərdə Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatlara nəzər salaraq, əldə olunan uğurlardan danışdı. Qeyd etdi ki, Azərbaycan iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artmış, qeyri-neft ixracı 4,1 dəfə çoxalmışdır:”Azərbaycan iqtisadiyyatında ardıcıl müşahidə olunan inkişaf meyilləri, ayrı-ayrı sahələrdə əldə edilən müsbət nəticələr dövlətin sosialyönümlü siyasətinin daha da gücləndirilməsinə imkan verir. Bir sözlə, sosial sahədə ardıcıl tərzdə həyata keçirilən layihələr, onu göstərir ki, Azərbaycan hökuməti əhalinin maddi rifah halının yaxşılaşdırılması və onların bütün sosial qayğılarla əhatə olunmaları üçün güclü maliyyə imkanlarına və islahatları dərinləşdirmək iradəsinə malikdir”.

Tədbirdə çıxış edən YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə Prezident İlham Əliyevin gördüyü işlərdən söz açdı. Bildirdi ki, Prezidentin həyata keçirdiyi sosial-iqtisadi siyasət vətəndaş amilinə söykənib:”Dövlət tərəfindən aparılan sosial-iqtisadi islahatlar hər bir azərbaycanlının ailəsində hiss olunur. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev ölkədə sosial məsələlərin həllini, əhalinin rifahının yüksəlişini prioritet məsələ hesab edir və ölkəmizdə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Bildiyimiz kimi, 2019-cu il həyatımıza sosial müdafiə və sosial rifah ili kimi daxil olub. Bu addımlar planlı, Azərbaycan dövlətinin sosial iqtisadi inkişafına uyğun, dövlət büdcəsinin imkanlarına və hazırlanan proqramlara uyğun olaraq həyata keçirilir. Bu, bir daha göstərir ki, Azərbaycan dövlətinin siyasətinin əsasında xalqın rifahının yüksəlməsi dayanır”.

Tədbirdə çıxış edən gənc fəal, Bakı Dövlət Universitetinin tələbəsi Vəfa Mürsəlzadə çıxış edərək, hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılı olduğunu bildirdi: “Bu baxımdan, ölkəmizdə gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin inkişafına təkan vermiş, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynamışdır. Bu yaxınlarda Azərbaycanda təhsil sahəsində yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmək məqsədi Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanan məlum sərəncamlar və Fərman dövlət-gənclər siyasətinin məntiqi davamıdır”.

***Zümrüd BAYRAMOVA***

## Görkəmli şəxsiyyətlərin xatirəsinin əbədiləşdirilməsi üzrə komissiya yaradılıb

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov görkəmli şəxsiyyətlərin, xalq, vətən, dövlət qarşısında xidmətləri olan şəxslərin və şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üzrə komissiyanın yaradılması haqqında Qərar imzalayıb.

AZƏRTAC xəbər verir ki, Qərarla Baş nazirinin müavininin sədrlik etdiyi, Nazirlər Kabineti Aparatının humanitar və sosial məsələlər şöbəsinin müdirinin katibi olduğu komissiyaya müdafiə, daxili işlər, mədəniyyət, gənclər və idman, təhsil, səhiyyə, maliyyə, əmək və əhalinin sosial müdafiəsi nazirlərinin müavinləri, Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin, Dövlət Təhlükəsizliyi Xidməti rəisinin, Dövlət Turizm Agentliyi sədrinin, Milli Arxiv İdarəsi rəisinin müavinləri, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı, “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri daxildir. Qərara əsasən dövlət müəssisələrinin, təşkilatlarının, idarələrinin və digər obyektlərin adlarının dəyişdirilməsi, onlara görkəmli şəxsiyyətlərin, xalq, vətən, dövlət qarşısında xidmətləri olan şəxslərin və şəhidlərin adlarının verilməsi ilə əlaqədar daxil olmuş təkliflər və Nazirlər Kabineti qarşısında qaldırılmış vəsatətlər Nazirlər Kabineti Aparatının aidiyyəti şöbələri tərəfindən araşdırılır və nəticəsi barədə arayışla birlikdə baxılması üçün bu Qərarla yaradılan komissiyaya təqdim edilir.

Qərardan irəli gələn digər məsələlər “Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası”nın və “Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1627 nömrəli Fərmanına əsasən həll edilir. Həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Şəhidlərin adının əbədiləşdirilməsi ilə əlaqədar komissiyanın yaradılması haqqında” 1995-ci il 10 yanvar tarixli 5 nömrəli və “Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Şəhidlərin adının əbədiləşdirilməsi ilə əlaqədar komissiyanın yaradılması haqqında” 1995-ci il 10 yanvar tarixli 5 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında” 1995-ci il 10 avqust tarixli 181 nömrəli qərarları ləğv edilir.

# “Müharibə əlilləri diqqət və qayğı ilə əhatə olunub”



“Bildiyiniz kimi aprelin 3-də, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva Heydər Əliyev Mərkəzində yüksək texnologiyalı protezlərlə təmin olunan Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərlə görüşüb. Bu görüş bir daha göstərir ki, Qarabağ müharibəsində o cümlədən Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin sağlamlıqlarının bərpa olunması, fəal həyata qayıtmaları üçün müvafiq tədbirlərin görülməsi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın daimi nəzarətindədir və bu şəxslər onun diqqət və qayğısı ilə əhatə olunub”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Rauf Əliyev deyib.

Mehriban xanım Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondu tərəfindən “2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi” layihəsinin həyata keçirildiyini xatırladan deputat söyləyib ki, Prezident İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq Azərbaycan Respublikasının ərazi bütövlüyünün və konstitusiya quruluşunun müdafiəsi zamanı əlilik qazanmış şəxslərin yüksək texnologiyalı reabilitasiya vasitələri ilə təmin olunması məqsədilə Protez-Ortopedik Bərpa Mərkəzinin nəzdində xüsusi sex yaradılıb: “2017-ci ildə Heydər Əliyev Fondunun və müvafiq dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə yaradılan işçi qrupu tərəfindən 2016-cı il Aprel döyüşləri zamanı yaralanmış və protezlərə ehtiyacı olan hər bir əsgər və zabitlərlə görüşlər keçirilib onlar yüksək texnologiyalı protezlərlə təmin olunublar. Artıq bu layihənin ikinci mərhələsi yekunlaşıb. Qarabağ müharibəsi əlillərinə dövlət qayğısı sahəsində dəstək məqsədi daşıyan bu layihənin davamı olaraq 2018-ci və 2019-cu illərdə daha bir qrup Qarabağ müharibəsi əlili Heydər Əliyev Fondunun dəstəyi ilə yüksək texnologiyalı protezlərlə təmin olunub”.

R. Əliyev vurğulayıb ki, ümumilikdə layihə çərçivəsində protezlərlə təmin olunan 100-dən çox Qarabağ müharibəsi əlili artıq aktiv həyata qayıdaraq əmək fəaliyyətlərini davam etdirir: “Tətbiq olunan yeni protezlərin texniki imkanları amputasiya olunmuş hissə ilə hərəkət uyğunluğu yaradır. Bunun sayəsində protezlə ayaq və yaxud əl bir-birinə maksimum uyğunlaşmış olur. Bu tədbirlərin həyata keçirilməsi imkan yaradır ki, xidməti vəzifələrini yerinə yetirərkən sağlamlıqlarının itirən zabitlər və əsgərlər özlərini cəmiyyətdən kənar hiss etmirlər və dinamik həyat fəaliyyəti ilə məşğul olan insanların arasındadırlar. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın görüş iştirakçılarına müraciətində qeyd olunur ki, “Azərbaycan dövləti və Azərbaycan xalqı üçün hər bir əsgər əzizdir, dəyərlidir. Sizin sağlamlığınızın bərpası və normal həyata qayıtmağınız üçün Azərbaycan dövləti lazımı addımları atır və bundan sonra da atacaqdır. Azərbaycan dövləti Sizin fəaliyyətinizi yüksək qiymətləndirir, Sizin kimi mərd və cəsur oğullarının olması ilə fəxr edir”.

Deputat qeyd edib ki, görüş bir daha göstərdi ki, Azərbaycanın ərazi bütövlüyünün bərpası, müstəqilliyi, ölkəmizin daha qüdrətli, daha möhkəm olması yolunda sağlamlıqlarını itirmiş əsgər və zabitlərimiz Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə əhatə olunub, bu şəxslərin həyat və fəaliyyətləri ilə bağlı bütün məsələlər yüksək səviyyədə həll edilir və bu belə də olacaq”.

***Nailə Məhərrəmova***



ARAŞDIRMA

# Əlilləri cəmiyyətə inteqrasiya edən reabilitasiya fəaliyyəti

***İqtisadi inkişaf dinamikasına görə dünyada lider mövqeyə sahib olan Azərbaycan öz iqtisadi gücünü sosial sferaya yönəltməyi qarşısına məqsəd qoyan ölkədir. Dövlət olaraq qarşıya qoyulan əsas məqsədin, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən siyasətin qayəsində ölkə vətəndaşlarının rifah halının daha da yaxşılaşdırılması, onların sosial müdafiəsinin gücləndirilməsi təşkil etməsi bir daha sübut edir ki, ölkəmizdə həyata keçirilən sosial siyasət davamlı xarakter daşıyır. Azərbaycanda əlilliyi olan şəxslərlə bağlı ölkə qanunvericiliyi daim təkmilləşdirilir, yeni hüquqi normativ aktlar qəbul edilir. Əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud uşaqlar Azərbaycan qanunvericiliyində, BMT Baş Məclisinin qəbul etdiyi Əlillərin hüquq bəyannaməsində təsbit olunmuş bütün sosial-iqtisadi, siyasi, şəxsi hüquq və azadlıqlara malikdirlər. Əlilliyi olan şəxslərin maddi təminatının gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir.***

Prezident İlham Əliyev tərəfindən imzalanan müvafiq fərman və sərəncamlara əsasən, əlillərin əmək pensiyalarının və sosial müavinətlərin məbləği mütəmadi olaraq artırılır. Ölkəmizdə həssas təbəqəyə malik olan əlillərin etibarlı müdafiəsi, onların maddi və mənəvi tələbatlarının ödənilməsi ilə yanaşı, onların tibbi-sosial reabilitasiyası ilə bağlı da çevik dövlət siyasəti həyata keçirilir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondu tərəfindən “2016-cı ilin aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi” layihəsi də bu sahədə görülən işlərə nümunədir. Qarabağ müharibəsi əlillərinə dövlət qayğısı siyasətinə dəstək məqsədi daşıyan bu layihənin davamı olaraq 2018-ci və 2019-cu illərdə daha bir qrup Qarabağ müharibəsi əlili Heydər Əliyev Fondunun dəstəyi ilə yüksək texnologiyalı protezlərlə təmin olunub. Ümumilikdə layihə çərçivəsində protezlərlə təmin olunan 100-dən çox Qarabağ müharibəsi əlili artıq aktiv həyata geri dönərək əmək fəaliyyətini davam etdirir.

## Əlillərin reabilitasiyası nə deməkdir?



Milli Məclisin əmək və sosial siyasət komitəsinin üzvü, deputat İlham Məmmədov deyib ki, ümumiyyətlə, reabilitasiyanın əsas fəlsəfəsini əlilliyin bərpa olunması və cəmiyyətə inteqrasiyası təşkil edir.

Onun sözlərinə görə, müxtəlif səbəblərdən əlil olan şəxslər müəyyən reabilitasiya prosesləri nəticəsində iş qabiliyyətlərini bərpa etmək, yenidən sağalmaq kimi imkanlar əldə edə bilirlər: “Reabilitasiya əlilliyin ümumiyyətlə, bərpasında ən vacib olan amillərdən biridir. Bu məsələlər Milli Məclisin Əmək və sosial siyasət komitəsində qaldırılır və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən icra edilir. Ölkəmizdə müasir avadanlıqlarla təchiz olunan reabilitasiya mərkəzləri fəaliyyət göstərir. Bu mərkəzlər təkcə paytaxtda deyil, eləcə də regionda yaşayan əlilləri də əhatə edir. Hazırda Yevlaxda belə bir mərkəzin tikintisi həyata keçirilir”.

## Reabilitasiyanın həyata keçirilməsi üçün hansı imkanlarımız var?

Deputat söyləyib ki, əlillərin reabilitasiyasına diqqət Ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə öndə duran məsələlərdən olub: “Azərbaycanın iqtisadi vəziyyətinin heç də yaxşı olmayan dövrlərində belə həmin şəxslərin reabilitasiyası üçün vəsait ayrılır və bu vəsait hesabına onlar xarici ölkələrə göndərilirdi. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycanın iqtisadi gücünün artması əlillərimizin reabilitasiyasının ölkəmizdə yüksək səviyyədə aparılmasına imkanlar yaradıb. Bura sağlamlıq imkanları məhdud olan şəxslərlə yanaşı, müharibə əlliləri də daxildir. Müasir texnoloji, yeni nəsil protezləşmə işlərinin aparılması üçün vəsait ayrılır, bu işlər yüksək səviyyədə həyata keçirilir. Bakı şəhərində yerləşən Əlillərin Reabilitasiya Mərkəzi reabilitasiya işlərinin həyata keçirilməsi üçün xüsusi avadanlıqlarla təchiz edilib. Təbii ki, burada Heydər Əliyev Fondunun fəaliyyətini qeyd etməmək mümkün deyil. Görülən işlər nəticəsində artıq heç bir əlilimiz reabilitasiya üçün xarici ölkələrə göndərilmir. Bu, əlillərin sosial müdafiəsi istiqamətində ən vacib elementlərdən biridir”.

## Kadr potensialı yetərlidirmi?

İ.Məmmədov qeyd edib ki, Azərbaycanda reabilitasiya sahəsində mütəxəssislərin yetişdirilməsi üçün tibb təhsilində xüsusi istiqamət müəyyənləşdirilməlidir: “Reabilitasiya sahəsi gündəmdə olan məsələdir və bu gün bu sahədə peşəkar mütəxəssislər fəaliyyət göstərir. Lakin hesab edirəm ki, hələ də reabilitasiya sahəsi ilə bağlı mütəxəssislər yetişdirilməli, həkimlərin peşəkarlığı artırılmalıdır. Bu gün Azərbaycanda dünyada analoqu olmayan, keyfiyyətli protez cihazlarının quraşdırılması həyata keçirilir. Ümumi reabilitasiya sahəsində orqanın fəaliyyətini bərpa edə biləcək mütəxəssislərin yetişdirilməsi bu sahədə yararlı ola bilər. Fizioterapiya istiqamətində peşəkar kadrlarımız var. Amma reabilitasiya ilə bağlı yaradılan müasir şərait, müasir avadanlıq və qurğulardan istifadə edən daha çox peşəkarın yetişdirilməsinə ehtiyac var. Azərbaycan Tibbi Universiteti buna öz töhfəsini verə bilər”.

## Əlillərin reabilitasiya vasitələri ilə təmini necə həyata keçirilir?



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat katibi Fazil Talıblı söyləyib ki, əlillərin reabilitasiyası ilə bağlı işlər reabilitasiya mərkəzləri tərəfindən həyata keçirilir. Onun sözlərinə görə, reabilitasiya sahəsində vasitələrin təmini məsələsi öndə durur ki, bununla da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Protez-Ortopedik Bərpa Mərkəzi məşğul olur: “İl ərzində minlərlə əlil bu xidmətdən istifadə edir. Son statistikaya əsasən cari ilin yanvar-mart aylarında tərəfindən 2788 əlilliyi olan şəxsə protez-ortopedik bərpa xidməti göstərilib. Onlardan 329 nəfəri ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslər olub. Qeyd olunan dövrdə Mərkəz tərəfindən əlilliyi olan şəxslərə 356 əlil arabası, 262 aşağı və yuxarı ətraf, habelə döş protezi, 1699 müxtəlif reabilitasiya vasitəsi, bel və boyun nahiyəsi üçün 46 korset, 479 cüt protez ayaqqabı, 1253 cüt ortopedik ayaqqabı, 298 dördayaqlı dayaq vasitəsi verilib. Əlilliyi olan şəxslər həmçinin 678 qoltuqaltı və dirsəkaltı ağac, 489 ədəd əsa və s. reabilitasiya vasitələri ilə təmin ediliblər. Ümumilikdə, 2019-cu ilin birinci rübündə Protez-Ortopedik Bərpa Mərkəzi tərəfindən əlilliyi olan şəxslərə 7583 reabilitasiya vasitəsi verilib, 178 nəfərə stasionar şəraitdə reabilitasiya xidmətləri göstərilib”.

## Reabilitasiya mərkəzlərində vəziyyət necədir?

Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin mətbuat katibi Gülnar Əzizova bildirib ki, hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Mərkəzinin nəzdində Sumqayıt, Yevlax və Naftalan Əlillərin Regional Bərpa Mərkəzlərində, eləcə də, Mərdəkan qəsəbəsində yerləşən Müalicə Pansionatında əsaslı təmir və tikinti işləri davam etdirilir: “Əlilliyi olan vətəndaşlara reabilitasiya xidmətlərinin daha səmərəli təşkili üçün qeyd olunan mərkəzlər yenidənqurma tədbirlərindən sonra ən son avadanlıq və müasir infrastrukturla təmin olunacaqlar. Əlilliyi olan şəxslər bu mərkəzlərdə bərpa potensiallarının reallaşdırılması üçün fərdi reabilitasiya proqramları əsasında səmərəli bərpa müalicə prosedurlarına cəlb olunacaqlar. Qeyd edək ki, bu il Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin nəzdində Şəki, Şirvan Lənkəran və Xaçmaz şəhərlərindəki Bərpa Mərkəzlərində, eləcə də əlilliyi olan şəxslər üçün Şağan Müalicə Pansionatında da əsaslı təmir və yenidənqurma işlərinə başlanması nəzərdə tutulub. Dövlət başçısının tapşırıqlarına əsasən, sağlamlıq imkanları məhdud uşaqlar üçün də reabilitasiya infrastrukturu daim təkmilləşdirilir. Sağlamlıq imkanları məhdud uşaqlar üçün reabilitasiya mərkəzlərinin respublikamızın bölgələri üzrə genişləndirilməsi nəzərdə tutulur.



Bu məqsədlə cari ildə Şəmkir və Qəbələ rayonlarında, 2020-ci ildə isə Bakı şəhəri Xəzər rayonu, Quba, Masallı, Ağcabədi, Xaçmaz və Lənkəran rayonlarında uşaqlar üçün bərpa mərkəzlərinin tikintisinə başlanması planlaşdırılır. Əlilliyi olan şəxslər və o cümlədən sağlamlıq imkanları məhdud uşaqlara reabilitasiya xidmətləri Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin tabeliyində olan 14 Bərpa Mərkəzi tərəfindən həyata keçirilir. İl ərzində minlərlə əlilliyi olan şəxsə həmin Bərpa Mərkəzlərində müxtəlif reabilitasiya xidmətləri göstərilir və protez - ortopedik məlumatlar, reabilitasiya vasitələri ilə təmin edilirlər. Qeyd edək ki, ötən il Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin nəzdində olan 14 Bərpa Mərkəzində ümumilikdə, 11900 əlilliyi olan şəxsə reabilitasiya xidmətləri göstərilib, 278 əlilliyi olan şəxs peşə-əmək reabilitasiyasına cəlb olunub, onlara 35300 reabilitasiya vasitəsi verilib, eyni zamanda 7557 əlilliyi olan şəxsə sanator-kurort yollayışları təqdim olunub. Xidmətin balansında olan Protez-Ortopedik Bərpa Mərkəzi tərəfindən isə 9300 əlilliyi olan şəxs protez-ortopedik xidmətlərlə təmin edilib”.

*Nailə Məhərrəmova*

# “Siyasi partiyaların cəmiyyətdə rolu”

## “Səs” qəzetinin redaksiyasında bu mövzuda ölkənin aparıcı partiyalarının iştirakı ilə dəyirmi masa keçirilib



***Artıq illərdir ki, “Səs” qəzeti tərəfindən, ənənəvi olaraq, ölkəmizin həyatında mühüm əhəmiyyət kəsb edən, günün aktual və prioritet mövzuları ətrafında silsilə xarakterli dəyirmi masalar təşkil olunur. Bu dəyirmi masalarda xalqımızın tarixi, milli-mənəvi dəyərləri ilə yanaşı, ölkəmizdə dövlət başçısının rəhbəriliyi ilə həyata keçirilən islahatlar və layihələr ətrafında dövlət nümayəndələrinin, millət vəkillərinin və ictimai təşkilat rəhbərlərinin iştirakı ilə müzakirələr aparılır.***

Növbəti dəyirmi masa “Siyasi partiyaların cəmiyyətdə rolu” mövzusunda keçirildi. Dəyirmi masada Yeni Azərbaycan Partiyası Beynəlxalq Əlaqələr Komissiyasının katibi, millət vəkili Elman Nəsirov, Azərbaycan Sosial-Demokrat Partiyasının sədri, millət vəkili Araz Əlizadə, Vəhdət Partiyasının sədri, millət vəkili Tahir Kərimli, Azərbaycan Demokrat Partiyasının sədr müavini Taliyət Əliyev, AMİP-in siyasi şurasının üzvü Əli Orucov, Müasir Müsavat Partiyasının sədr müavini İbrahim Həsənov, Azərbaycan Təkamül Partiyasının sədri Teyyub Qənioğlu, Azadlıq Hərakatçıları İB-nin sədri Təhmasib Novruzov, AXCP sədri Əli Kərimlinin əmisi oğlu “Azərbaycan Fermeri” qəzetinin baş redaktoru Nuhəli Kərimov, gənc fəal Fuad Muradov iştirak edirdilər.

Dəyirmi masanı giriş sözü ilə “Səs” qəzetinin baş redaktoru Bəhruz Quliyev açaraq, bu gün Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən müasir dövrün tələblərinə uyğun siyasi islahatların, icra edilən iqtisadi proqram və sərəncamların ölkəmizin nüfuzunun sərhədlərini genişləndirməklə bərabər, insan amilinin də inkişafına güclü təkan verdiyini diqqətə çatdırdı: “Bu gün Azərbaycan Prezidenti İlham Əliyev ölkədə sosial məsələlərin həllini, əhalinin rifahının yüksəlişini prioritet məsələ hesab edir və ölkəmizdə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Bütün bunlar Azərbaycanda dövlət və xalq birliyinin bariz nümunəsidir”.

### ONLAR PARLAMENTDƏN, HANSISA DÖVLƏT ORQANINDAN YIXILAN KİMİ, DÖNÜB RADİKAL MÜXALİFƏT OLURLAR

TAHİR KƏRİMLİ:

- Azərbaycan müxalifəti Suriyada proseslər yeni-yeni başlayanda, mütəmadi çıxışlar edirdilər ki, 5 milyondan artıq adam demokratiya uğrunda mübarizəyə başlayıblar. Onlar bunu fərəhlə danışırdılar. Bəs indi niyə onlar bu məsələdən danışmırlar? Suriyada hanı o demokratiya? Bu mənada, xaricdən ölkəmizə qarşı olan təhdidlərin də arxasında ölkəmizdən istifadə etmək dayanır. Məsələ ondadır ki, Azərbaycan bu beynəlxalq qlobal təsirləri müəyyən qədər neytrallaşdırır və müstəqil siyasət yeridə bilir. Təbii ki, bu müstəqil siyasət kiminsə xoşuna gəlmir.

Bu gün Azərbaycanda sabitlik pozulsa, hansı demokratiyadan danışmaq olar. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev deyir ki, nəinki Qarabağ, indiki Ermənistan da Azərbaycanın tarixi torpağıdır. Açığını deyək ki, bizlər cürət edib o sözləri deyə bilmirik. Bu mənada, hesab edirəm ki, radikal müxalifət lideri də konsepsiya ortaya qoymalıdır. Bunların dedikləri yalnız “Məşədi İbad” filmindəki kimi “aç qapını, gələk səni öldürək” deyiminə bənzəyir. Müxalifət deyir ki, “sən çıx otur, mən sənin yerinə hakimiyyətə gəlim”. Sən hakimiyyətə gəldiyin təqdirdə, bəs sənin kadr üçün potensialın, proqramın var? Ax biz bütün bu məsələlərdən keçmişik. Onlar parlamentdən, hansısa dövlət orqanından yıxılan kimi, dönüb radikal müxalifət olurlar. Bunların hər birini xalq görür. Xalq hər şeyi çox gözəl bilir.

BƏHRUZ QULİYEV:

- Hansısa bir partiyanın nümayəndəsi olmasından asılı olmayaraq, bizim bir milli şüurumuz, bir milli ideyamız, bir dövlətimiz var. Buna görə, hər bir Azərbaycan vətəndaşı məsuliyyət daşıyır. Taliyət müəllim, sizcə, ümummilli məsələlərdə bizim birləşməyimiz mümkündürmü?

### MİLLİ MƏSƏLƏLƏRDƏ, BİRMƏNALI OLARAQ, SİYASİ MƏNSUBİYYƏTDƏN SÖHBƏT GEDƏ BİLMƏZ

TALİYƏT ƏLİYEV:

- Təbii ki, milli maraq kəsb edən məsələlərdə qarşıya qoyulan məqsədə çatmaq üçün iqtidar və müxalifət münasibətləri sivil bir formada normallaşmalı və bu sağlam bir mühitdə baş tutmalıdır. Hesab edirəm ki, bu gün Azərbaycan cəmiyyətində buna ciddi ehtiyac var. Bundan bir xalq, dövlət, cəmiyyət qazanmış olar. Bu baxımdan, sivil münasibətlərin yaranması vacibdir. Milli məsələlərdə, birmənalı olaraq, deyə bilərəm ki, siyasi mənsubiyyətdən söhbət gedə bilməz. Əks- təqdirdə, bu, Azərbaycan dövlətinə və xalqına xəyanət demək olardı. Məlumdur ki, aprel döyüşlərində hamı bir hədəfə vurdu. Hətta bizim partiyanın bir üzvü aprel döyüşlərində şəhid oldu. Hər bir Azərbaycan vətəndaşı, qeyd etdiyim kimi, siyasi mənsubiyyətindən asılı olmayaraq, döyüşməyə də, hakimiyyətin yanında olmağa da hazır olmalıdır və biz bunu bəyan da etmişdik. Sağlam düşüncə sahibi olan bir kəs qeyri-münasibət nümayiş etdirə bilməz. Azərbaycanda olan ictimai-siyasi məsələlərə gəlincə, qısa şəkildə vurğulamaq istəyirəm ki, ölkəmizdə dövlət başçısı hər bir vətəndaşının probleminə həssas tərzdə yanaşır və onu həll edir. Xüsusilə, bu ilin əvvəlindən başlayaraq, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə sosial sferada həyata keçirilən islahatlar, imzalanan fərman və sərəncamlar bunu bir daha təsdiq edir. Bu gün Azərbaycanda sosial problemlərin həlli ilə bağlı çox böyük işlər həyata keçirilir. Bütün bunlar Azərbaycanın daha xoş gələcəyi naminə reallaşır.

### PARTİYALAR BİR-BİRİNƏ DÜŞMƏN KİMİ YOX, TƏRƏFDAŞ KİMİ YANAŞMALIDIRLAR

ƏLİ ORUCOV:

- Siyasi partiyaların cəmiyyətdə rolu olduqca aktual olan bir mövzudur. İlk olaraq, bildirim ki, Azərbaycan sovet məkanında 70 il totalitar bir rejimdə, təkpartiyalı rejimdə yaşayıb. Müstəqillik əldə edən Azərbaycanda çoxpartiyalılığın yaranmasına zəruriət var idi. Müstəqil dövlətimizdə təkpartiyalı sistemdən çoxpartiyalı sistemə keçidin əsası qoyuldu. 1992-ci ildə Azərbaycan müstəqillik qazanandan sonra zərurət yaranmışdı ki, ölkədə yeni bir siyasi təşkilat yaransın. O dövrə qədər müəyyən qruplar var idi, amma onlar siyasi partiya səviyyəsində deyildilər, qeydiyyatdan da keçməmişdilər. Bu boşluğu ilk dəfə Azərbaycan Milli İstiqlal Partiyası doldurdu. Bundan sonra isə, ölkədə təkpartiyalı sistemdən çoxpartiyalı sistemə keçidin əsası qoyuldu. Daha sonra Yeni Azərbaycan Partiyası yarandı və digər partiyalar qeydiyyatdan keçdi. Bu, çox mütərəqqi bir hal idi. Çoxpartiyaların olması ölkənin dayanıqlığı və rəqabəti deməkdir. Siyasi partiyaların olması cəmiyyətin sosial siyasiləşməsinə gətirib çıxarır. Sivil ölkələrdə, adətən, siyasi partiyaların inkişafına da böyük dəstək verilir. Azərbaycan Respublikasının Konstitusiyasının birinci maddəsində göstərilir ki, hakimiyyətin mənbəyi xalqdır. Bu gün ölkədə 55 siyasi partiya qeydiyyatdan keçib. Mitinqlərə gəlincə, deyim ki, Azərbaycan Konstitusiasında, eləcə də, beynəlxalq hüquqda sərbəst toplaşmaq vətəndaşların hüquqi normalarıdır. Bu, vətəndaşların sərbət toplaşması haqqıdır. Məsələ ondadır ki, mitinqlərin siyasi mübarizə vasitəsi kimi istifadəsinə zəruriət var, ya yox? Siyasi partiyalar, təbii ki, qərarlarını müstəqil şəkildə verir, strategiya və taktikalarını müstəqil şəkildə müəyyənləşdirirlər. Biz deyə bilmərik ki, hansısa bir partiya nəyisə səhv, yaxud düz edir. Təəssüf ki, bütün mübarizələr tükənəndə, mitinqlərə əl atırlar. Çox təqdirəlayiq haldır ki, bugünkü dəyirmi masada siyasi partiyaların bir neçəsi bir yerə toplaşıb və





bir-birlərinin fikirlərini dinləyir, müzakirlər qarşılıqlı şəkildə aparılır. Görürsünüz, Türkiyədə partiyalar arasında siyasi debatlar çox qızğın şəkildə aparılır. Amma milli maraqlara gələndə, sıx birləşməyi bacarırlar. Məsələn, Türkiyədə çevrilişə cəhd olanda, onlar bir araya gəlib birləşdilər. Çünki onları ortaq maraqlar - milli maraqlar birləşdirirdi. Mən hesab edirəm ki, siyasi mübarizədən və rəqabətdən qaçmaq lazım deyil. Partiyalar bir-birinə düşmən kimi yox, tərəfdaş kimi yanaşmalıdır.

## ÖLKƏNİN MƏNAFEYİNƏ XƏLƏL GƏTİRƏN ADDIMIN ATILMASI QƏBULOLUNMAZDIR

TEYYUB QƏNİOĞLU:

- Hüquqi bir dövlətdə mitinqlərin keçirilməsi normal bir haldır. Təbii ki, hər bir şey sağlam tərzdə həyata keçirilməlidir. Mən hər zaman bildirmişəm ki, hər hansı bir siyasi partiyanın mövqeyi iqtidarın mövqeyinə zidd ola bilər. Amma bu mövqe dövlətimizə ziddirsə, buna getmək olmaz. Ölkənin mənafeyinə xələl gətirən hansısa bir addımın atılması qəbulolunmazdır. Əlbəttə ki, vətəndaşlıq mövqeyi önəmli məsələdir. Biz ölkədə sabitliyi, təhlükəsizliyi, inkişafı qoruyub, təmin etmək üçün hamılıqla çalışmalıyıq. Sabitliyimizi pozmaq istəyənlərin, inkişafımıza mane olmağa çalışanların qarşısını almalıyıq. Bu gün ölkəmizdə dövlət başçısı tərəfindən geniş islahatlar həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev ölkədə sosial məsələlərin həllini, əhalinin rifahının yüksəlişini prioritet məsələ hesab edir və ölkəmizdə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Bu islahatlar planlı, Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafına uyğun, dövlət büdcəsinin imkanlarına və hazırlanan proqramlara uyğun olaraq həyata keçirilir. Bu, bir daha göstərir ki, Azərbaycan dövlətinin siyasətinin əsasında xalqın rifahının yüksəldilməsi dayanır. Əlbəttə ki, bu islahatlar davam etdiriləcək.

## AZƏRBAYCANIN UĞURLARI, CƏNAB PREZİDENTİN MÜDRİK SİYASƏTİ NƏTİCƏSİNDƏ REALLAŞAN VƏ NƏZƏRƏÇARPAN İNKİŞAF ANTİ-AZƏRBAYCAN QÜVVƏLƏR TƏRƏFİNDƏN QISQANCLIQLA QARŞILANIR

NUHƏLİ KƏRİMOV:

- Bu gün istənilən siyasi partiyanın mövqeyindən asılı olmayaraq, Qarabağ probleminini həllində birlik olmalıdır. Bu məsələ hər bir azərbaycanlının ümumi məsələsidir. Bu məsələdə siyasi mənsubiyyətindən asılı olmayaraq, yumruq kimi birləşməliyik. Ölkəmizdə müxalifət deyilən bir məkan ki var, onların hər birində şəxsi maraq mövcuddur. Biz bugünkü reallıqları görmək üçün tariximiz, vərəqləməliyik. Müstəqilliyimizin ilk illərinə nəzər salaq. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışına qədər olan dövrdə ölkədə hökm sürən anarxiya və özbaşınalıq ölkəni iflic vəziyyətinə salmışdı. O illər çox çətin və ağır illər idi. Heydər Əliyev bu dövlətin inkişaf strategiyası hazırladı və uçurumda olan Azərbaycanda inkişaf mərhələsi başlandı. O illəri yaşayan xalq yenidən tarixin təkrar olunmasını istəyərmi? Bu gün Ulu Öndər Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi ardıcıl və düşünülmüş sosial-iqtisadi siyasəti nəticəsində, ölkəmizin davamlı inkişafı təmin edilib, ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisi ciddi şəkildə artıb. Əsası Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulan və Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla və yeni dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirilən dövlət siyasəti nəticəsində, Azərbaycan dünyaya yeni və nümunəvi inkişaf modeli təqdim edir. İqtisadiyyatın modernləşdirilməsi, qeyri-neft sektorunun inkişafı ilə bağlı irimiqyaslı layihələrin reallaşdırılması nəticəsində yeni iş yerləri açılıb, əhalinin həyat səviyyəsi yüksəlib və məşğulluğu artıb. Sosial rifah halının, insanların həyat səviyyəsinin yüksək olmadığı cəmiyyətdə, dövlətdə böyük nailiyyətlərlə müşayiət edilən inkişafdan söhbət açmaq mümkün deyil. Sosial siyasət insanların həyatının bütün sahələrinin yaxşılaşdırılmasını, sosial ədalət prinsipinin reallaşdırılmasını, əhalinin etibarlı sosial müdafiəsinə nail olunmasını əhatə edir. Ermənipərəst dairələrin sifarişlərini yerinə yetirən xaricdəki antimilli ünsürlər isə, Azərbaycan xalqına və dövlətinə qarşı təhqir kampaniyası aparır, xalqımızın milli-mənəvi dəyərlərini hədəfə alırlar. Azərbaycanda illərdir sistemili şəkildə görülən işlər və aparılan siyasət milli iqtisadiyyatımızın yüksəlişini təmin edib. Xatırlayırıq ki, hələ qlobal maliyyə böhranı dövründə Azərbaycan iqtisadiyyatı öz sabitliyi ilə seçildi və həmin prosesdən, demək olar ki, zərər çəkməyən azsaylı dövlətlərdən olduq. Bunun arxasında isə, illərdir düzgün istiqamətlənən dövlət siyasəti dayanırdı.

Azərbaycanın uğurları, Cənab Prezidentin müdrik siyasəti nəticəsində reallaşan nəzərəçarpan inkişaf anti-Azərbaycan qüvvələr tərəfindən qısqanclıqla qarşılanır. Qeyri-sağlam düşüncəyə malik satqın, xəyanətkar və hoqqabazlar bunu həzm edə bilmirlər.

(Ardı var)

*Nəzakət ƏLƏDDİNQIZI*

# İspaniya portalı Ermənistanın Azərbaycanın tarixi abidələrinə qarşı vandalizmindən yazır

***2019-cu ilin 18 fevral tarixində mərkəzi Nyu-York şəhərində olan "Hyperallergic" internet portalında dərc edilmiş "Azərbaycan erməni mədəniyyətini məhv edir" başlıqlı məqaləyə cavab olaraq, İspaniyanın "Diario Siglo XXI" elektron portalında jurnalist Peter Tase tərəfindən Ermənistan tərəfindən həyata keçirilən ölkəmizin tarixi və dini abidələrinə qarşı vandalizmindən bəhs edən "Azərbaycana qarşı erməni faşizminin təbliğatı" başlıqlı məqalə dərc edilib.***




AZƏRTAC xəbər verir ki, məqalədə yüksək sürətlə inkişaf edən Azərbaycan Respublikasının mədəni və dini abidələrin qorunmasına xüsusi diqqət ayırdığı, o cümlədən Bakı şəhərinin mərkəzində erməni kilsəsinin, habelə həmin kilsənin 5500 kitabdan ibarət kitabxanasının qorunub-saxlandığı qeyd edilir. Məqalədə, həmçinin Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal edildiyi, işğal edilmiş ərazilərdə yerləşən bütün tarixi, memarlıq və dini abidələrin dağıdıldığı, 1 milyondan çox azərbaycanlının öz doğma yurdlarından didərgin salındığı vurğulanır. Ermənistanın öz ərazisini Azərbaycan torpaqları hesabına genişləndirmə siyasətinin regionda sülh və tərəqqiyə təhlükə yaratdığı bildirilir.

Ermənistanın öz təcavüzkar siyasəti nəticəsində ağır iqtisadi-sosial şəraitlə üzləşdiyi, digər tərəfdən isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Avropa və dünyada sülh və tərəqqinin müdafiəsinə yönəlmiş xarici siyasət xətti yürütməsi fonunda ölkənin gündən-günə siyasi və iqtisadi cəhətdən çiçəkləndiyi qeyd olunur.

# Ekspert Mətin Yıldırım: İşğalçılıq siyasəti və əsassız iddialar Ermənistanı fəlakətə sürükləyir



***Ermənistan işğalçılıq siyasətindən əl çəkməklə sülh və inkişafa nail ola bilər. Aprel döyüşlərindən ibrət dərsi çıxarmasa işğalçı dövlət özünə böyük problemlər yaratmaqda davam edəcək və baş verəcək bütün xoşagəlməz hadisələrə görə məsuliyyət daşıyacaq.***

Bu fikirləri AZƏRTAC-a açıqlamasında türkiyəli ekspert, yazıçı-tərcüməçi Mətin Yıldırım söyləyib.

2016-cı ilin Aprel döyüşlərindən sonrakı vəziyyəti şərh edən ekspert bildirib ki, ortadakı acı həqiqət təcavüzkar tərəfin forpost missiyasını əldən vermək istəməməsidir. İşğalçılıq siyasəti və qonşu ölkələrə qarşı əsassız iddialar Ermənistanı fəlakətə sürükləyir. Təəssüf ki, dünyadakı ikili standartlar ucbatından beynəlxalq ictimaiyyət Dağlıq Qarabağla bağlı açıq mövqe nümayiş etdirmir. Mətin Yıldırım deyib: "Bütün dünyaya məlumdur ki, Ermənistan Azərbaycan torpağının bir hissəsini öz gücü hesabına işğal etməyib. 2016-cı ilin Aprel döyüşləri kimin hansı gücə sahib olduğunu və hansı xalqın məsələyə necə yanaşdığını açıq şəkildə ortaya qoydu. Ermənistan tərəfi bu döyüşlərdə əlil olan hərbiçilərinin adi problemlərini belə həll edə bilmir. Sıravi ermənilər ölkə hakimiyyətinə nifrət edirlər".

Ekspert vurğulayıb ki, indi vəziyyət əvvəlki kimi deyil. Azərbaycanın və Türkiyənin müstəqil dövlətlər kimi güclənməıləri, xalqlarımızın qardaşlığı özü-özlüyündə birliyə və gücə çevrilib. Bütün bu həqiqətlər fonunda Ermənistan tərəfi dərk etməlidir ki, xülyaları gerçəkliyə çevirmək iştahası daha tarixə qovuşub.

# YAP Binəqədi rayon təşkilatında “Güclü Lider - güclü Azərbaycan” adlı tədbir keçirildi

***Dünən Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binasında Yeni Azərbaycan Partiyasının İcra Katibliyi, Binəqədi rayon icra hakimiyyəti və YAP Binəqədi rayon təşkilatının birgə təşkilatçılığı ilə Cənab İlham Əliyevin 2018-ci ildə yenidən Prezident seçilməsinin 1 illiyinə və ölkədə aparılan sosial, iqtisadi və siyasi islahatlara həsr olunmuş “Güclü Lider-güclü Azərbaycan” adlı tədbir keçirildi.***



Tədbirdən öncə, 2016-cı ildə baş verən aprel döyüşlərində həyatını itirmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Tədbiri giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədri R.Göyüşov qonaqları salamlayaraq, bugünkü tədbirin əhəmiyyətindən bəhs etdi. R.Göyüşov dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə davamlı islahatların həyata keçirildiyini və vətəndaşların maraqlarına xidmət edən bir sıra məsələlərin öz həllini tapdığını diqqətə çatdırdı. Həyata keçirilən dövlət proqramlarından, bölgələrdə və Bakı şəhərində böyük infrastruktur layihələrinin uğurla icra olunmasından danışdı.

R.Göyüşov çıxışında, eyni zamanda, Azərbaycan əleyhinə çirkin və əsassız qara kampaniya aparan bir qrup şəxsləri, müxalifət nümayəndələrini kəskin tənqid edərək, dövlətimizin çiçəklənməsini və inkişafını gözü götürməyən qüvvələrə qarşı hər zaman xalqımızın layiqli cavab verdiyini vurğuladı. Bildirdi ki, xalqımız dövlət başçısı Prezident Cənab İlham Əliyevin ətrafında sıx birləşib və heç bir antimilli qüvvə bu birliyə mane ola bilməz.

Tədbirdə çıxış edən Milli Məclis sədrinin birinci müavini, YAP Siyasi Şurasının üzvü Ziyafət Əsgərov Cənab İlham Əliyevin 2018-2025-ci illəri əhatə edən Prezidentlik dövrünün ilk 1 ili ərzində Azərbaycanın öz dinamik inkişafını təmin etdiyini və ölkəmizin əmin-amanlıq, sabitlik və təhlükəsizlik şəraitində yaşadığını bildirdi. Z.Əsgərov ölkə başçısı İlham Əliyevin prezidentlik dövrünün ilk 1 ilini yüksək səciyyələndirərək, dövlətimizin hərtərəfli inkişafı və xalqın sosial rifahının daha da gücləndirilməsi istiqamətində görülən işləri məqsədyönlü dövlət siyasətinin mühüm tərkib hissəsi adlandırdı. Son bir il ərzində ölkəmizdə ciddi institutsional islahatların aparıldığını, bu islahatların ölkəmizə və vətəndaşlarımıza olan töhfəsini qeyd etdi. Bununla yanaşı, Cənab Prezidentin son çıxışlarında da, xüsusilə, məhkəmə-hüquq sahəsində isalahatların aparılması anonsunun bu cür inkişafa əsaslı təkan verəcəyini söylədi. Z.Əsgərov, həmçinin, 2019-cu ilin ilk iki ayında əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması istiqamətində inqilabi addımların atıldığını, yeni islahatların ölkə iqtisadiyyatının daha da inkişaf etdirilməsinə xidmət etdiyini bildirdi: “Son illər Azərbaycanın beynəlxalq mövqeləri möhkəmlənib, Azərbaycan bu gün bir çox ölkələrlə çox səmərəli, işgüzar, ikitərəfli münasibətlər qurur, bir çox hallarda isə, Azərbaycanın çoxtərəfli əməkdaşlıq formatının təşəbbüskarı qismində çıxış edir və qonşu dövlətlərlə əlaqələrimiz yeni mərhələyə qədəm qoyub. Hər bir ölkə üçün qonşularla münasibətlərin inkişafı xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan, son 1 ildə ölkəmiz xarici siyasət kontekstində ölkə başçısının rəhbərliyi ilə mühüm uğurlara imza atıb”.



Milli Məclisin deputatı Kamaləddin Qafarov çıxışında Milli Məclisin ötən payız sessiyyasında “İcbari Tibbi Sığorta haqqında qanun”a edilən əlavə və dəyişikliklər haqqında ətraflı məlumat verdi. Millət vəkili, həmçinin, çıxışında Milli Məclisdə Azərbaycanın 2019-cu il üçün dövlət büdcəsinin layihəsinin təsdiq olunduğunu, gələn ilin dövlət büdcəsində səhiyyə sahəsində mühüm tendensiyaların müəyyənləşdiyini diqqətə çatdırdı. Hər il dövlət büdcəsindən səhiyyənin inkişafına ayrılan xərclərin əhəmiyyətli dərəcədə artdığını, bunun səhiyyə sahəsinin inkişaf etdirilməsinin dövlət siyasətinin mühüm prioritetlərindən biri olduğunu söylədi.

Binəqədi rayon icra hakimiyyətinin başçısı Elxan Allahverdiyev çıxış edərək, dövlət başçısı İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən “Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq, Bakı şəhərində aparılan abadlıq-quruculuq, yenidənqurma işləri fonunda Binəqədi rayonunda görülən işlərdən və gələcəkdə görülməsi nəzərdə tutulan işlər haqqında məlumat verdi. Diqqətə çatdırdı ki, son 15 il ərzində Azərbaycanda bütün sahələrdə ancaq müsbət inkişaf dinamika müşahidə olunur: “İqtisadiyyatın elə bir sektoru yoxdur ki, orada, ən azı 2 dəfədən çox artım olmasın. Bu, Cənab Prezidentin dövlət quruculuğu kursunun inkişafına daim diqqət göstərməsi ilə bağlıdır. Azərbaycan Prezidentinin və dövlətinin əsas məqsədi əhalinin həyat səviyyəsini yaxşılaşdırmaq və son illərdə qazanılmış sosial-iqtisadi uğurların davamlı olmasını təmin etməkdir”.

Tədbirdə iştirakçıları maraqlandıran suallar cavablandırıldı. Sonda xatirə şəkli çəkdirildi.

***ZÜMRÜD BAYRAMOVA***

# Xalçaçılıq sənətinə dövlət dəstəyi gücləndirilir



***Azərbaycanda qeyri-neft sektorunun inkişafının ölkəmizin iqtisadiyyatına təsiri müstəsnadır. Qeyri-neft sektoruna ayrılan diqqət, yaradılan şəraitin nəticəsidir ki, müsbət göstəricilər diqqəti cəlb edir. Dünya mədəni irsində yer alan xalçaçılıq sənəti bu gün Azərbaycan Prezidenti İlham Əliyevin qəbul etdiyi qərarların nəticəsində yeni inkişaf dövrünü yaşayır.***

Ölkə Prezidentinin 7 dekabr 2004-cü il tarixində “Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununu təsdiq etməsi, 2005-ci ilin fevralın 7-də “Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə imzaladığı Fərmanı Azərbaycanda xalçaçılığın inkişaf tarixində yeni səhifələr açmaqla, onun daha da intensiv inkişafına misilsiz töhfə vermiş oldu. Qeyri-neft sektorunun inkişafının prioritet təşkil etdiyi müasir dövrdə dövlət başçısının “Azərxalça”nın yaradılması barədə Azərbaycan Prezidentinin 2016-cı ilin 5 may tarixli Sərəncamı isə xalça və xalça məmulatlarının istehsalı, onların ölkə daxilində və xaricdə satışının təşkili, istehsalatda yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə, habelə, bu sahənin inkişafı ilə bağlı digər işlərin yerinə yetirilməsinə geniş imkanlar açmış oldu.



Xalçaçılıq sənətinin inkişafı istiqamətində ardıcıl işlər görülməkdədir. Azərbaycan Prezidenti İlham Əliyevin məlum sərəncamları ilə ölkəmizdə tikilən xalça fabrikləri bu sahənin inkişafına istiqamətlənib. Azərbaycan Prezidenti İlham Əliyevin bu sahənin daha da inkişafı ilə bağlı qəbul etdiyi qərarlar, xüsusilə əhəmiyyətlidir. Paytaxtımızda, eləcə də, bölgələrdə dövlət başçısının sərəncamları xalça istehsalı emalatxanasının tikintisi, avadanlıq və dəzgahlarla təchizatı və infrastrukturunun yaradılması bu sahənin inkişafına böyük təkan olub.

Bu gün “Azərxalça” Açıq Səhmdar Cəmiyyəti dünyanın müxtəlif muzeylərində, şəxsi kolleksiyalarda saxlanılan qədim xalçalarımızı aşkara çıxararaq, onların çeşniləri əsasında yeni xalçalar toxuyur. Cəmiyyət dünya muzeylərində, kolleksiyalarda saxlanılan, müxtəlif vaxtlarda hərraca çıxarılaraq satılan Azərbaycan xalçaları barədə məlumat bazası da yaradır. Cəmiyyət tərəfindən 1998-ci ildən 2017-ci ilədək hərraca çıxarılan 100-dən çox qədim xalça haqqında məlumatlar əldə olunub. Vyanada, Londonda, Nyu-Yorkda və digər ölkələrdə keçirilən hərraclarda XVIII və XIX əsrlərdə toxunmuş Azərbaycan xalçalarının satışı ilə bağlı məlumatlar əldə edib. Məlum olub ki, “Qarabağ”, “Qazax-Borçalı”, “Təbriz”, “Quba” qruplarına aid olan xalçaların ən ucuzu 10 min avroya, ən bahalısı isə 233 min ABŞ dollarına satılıb.

Xalçaçılığın inkişafı iqtisadi cəhətdən də ölkəmizi gücləndirir, eyni zamanda, ölkəmizin dünyada təbliğində ən öndə gedən sənət növlərindən biridir. Artıq məhsullar “Azərbaycan brendi” olaraq beynəlxalq sərgilərdə nümayiş olunur, əl ilə toxunmuş yeni Azərbaycan xalçalarına dünya bazarlarında tələbat böyükdür. Azərbaycan xalçalarının Bakı, Qarabağ, Naxçıvan, İrəvan, Təbriz, Şirvan, Quba, Gəncə, Qazax-Borçalı qruplarına aid 300-dən çox xalça çeşnisi hazırlanıb və onların bir qismi istehsalatda tətbiq edilib. Dünya muzeylərində və kolleksiyalarda saxlanılan nadir Azərbaycan xalça və xalça məmulatları əsasında çeşnilərin hazırlanmasına üstünlük verilir.

ASC-nin ilkin mərhələdə yaradılan Füzuli, Şəmkir və Quba kimi rayon filialları artıq tam gücü ilə fəaliyyət göstərir. Hazırda digər filialların binalarının tikintisi davam etdirilir. Bütün bu işlər Azərbaycanda xalçaçılığın inkişafına böyük təkan verir və həmin sahəni stimullaşdırır.

Cənab Prezidentin çıxışlarının birində vurğuladığı kimi: “...Ölkəmizdə 30 xalçaçılıq fabriki yaradılacaq və minlərlə insan, xüsusilə, qadınlar işlə təmin olunacaqlar”.

Azərbaycanda xalçaçılığının inkişafının çox böyük tarixi və böyük gələcəyi var. Xalçaçılıq bizim milli sərvətimizdir və bu sərvət qorunur və yaşayır. Zaman-zaman bir nəsildən digər nəslə ötürülən bu sənət bu gün gənclərə öyrədilir. Xalçaçılığın inkişafı iqtisadi cəhətdən də ölkəmizi gücləndirir, eyni zamanda, ölkəmizin dünyada təbliğində ən öndə gedən sənət növlərindən biridir.

Xalçaçılıq sənətinin inkişafı istiqamətində ardıcıl görülən işlər bu sahənin inkişafına daha da geniş imkanlar açır. Dövlət başçısının sərəncamları və həyata keçirilən tədbirlər bunu deməyə əsas verir.

***Nəzakət ƏLƏDDİNQIZI***

***Son dövrlərdə ekspertlər dünyanın iki böyük geosiyasi güc mərkəzi olan ABŞ və Rusiyanın Cənubi Qafqazda daha da fəallaşdığından bəhs edirlər. O cümlədən NATO-nun Gürcüstanda hərbi təlimlər keçirməsini bu bağlılıqda ciddi faktor kimi təqdim edirlər. Bunun fonunda ekspertlər Azərbaycan, Ermənistan və Gürcüstanın geosiyasi vəziyyəti haqqında proqnozlar verməyə çalışırlar. Analizlərdə Cənubi Qafqazda Ermənistan və Gürcüstanın xarici siyasəti və geosiyasi seçimi ilə əlaqələndirilən "geosiyasi dalan"ın yaranmaqda olduğu vurğulanır. NATO-nun Gürcüstanda keçirdiyi hərbi təlimlər də həmin kontekstdə qiymətləndirilir. Müxtəlif parametrlərin müqayisəsi göstərir ki, regionda kifayət qədər gərgin geosiyasi mənzərə formalaşmaqdadır. Cənubi Qafqaz ölkələrinin xarici siyasəti bu bağlılıqda daha böyük aktuallıq kəsb edir. Həmin çərçivədə regionun geosiyasi mənzərəsinin məzmunu üzərində geniş dayanmaq ehtiyacını hiss edirik.***




## Şimali Atlantika Alyansının fəallığı: hərbi təlimlər və geosiyasi mənzərə

Ekspertlər NATO-nun Cənubi Qafqazda fəallaşdığından bəhs edirlər. Məsələnin geosiyasi və təhlükəsizlik baxımından region üçün aktuallığını təsdiq edən faktlar da göstərilir. Ermənistanın xarici siyasət kursunun meydana gətirdiyi qeyri-müəyyənliyə xüsusi diqqət yönəldilir. Şimali Atlantika Alyansının martın 18-dən 29-dək Gürcüstanda keçirdiyi təlimlər bu baxımdan daha çox maraq doğurub. Həmin təlimlər "NATO-Georgia Exercise 2019" adlanırdı. Onun əsas məqsədi Gürcüstanın müdafiə qüdrətini artırmaq və Alyansa üzv olmayan ölkələrdə yarana biləcək böhranlı vəziyyətə çevik reaksiya mezanizmlərini hazırlamaqdan ibarət olub. Təlimlərdə 24 ölkədən 350 əsgər və nümayəndələr iştirak edib. Gürcüstandakı təlimlərə Ermənistan əsgər göndərməyib, Azərbaycandan isə nümayəndələr iştirak ediblər.

Ancaq Gürcüstanda hərbi təlimlər keçirilən zaman Ermənistanda "NATO hərftəliyi" adlı tədbir təşkil edilib. Ermənistan hakimiyyəti bu hadisəni "deklarativ tədbir" kimi təqdim etməyə çalışıb. Erməni tərəfi Ermənistanın hərbi təlimlərdə iştirakı məsələsini milli maraqlar və təlimlərdən ala biləcəkləri fayda ilə əlaqələndiriblər. Gürcüstanda keçirilən hərbi təlimlərdə bu ölkənin hərbi-müdafiə potensialının artırılması məsələsi qoyulduğundan, Ermənistan buna maraq göstərmədiyini deyir. Ancaq burada Alyansa üzv olmayan ölkələrdə böhran yarandıqda, buraya çevik müdaxilə məsələsi də diqqət mərkəzində idi. Belə görünür ki, Ermənistan Moskvadan o dərəcədə qorxur ki, NATO-nun Ermənistanda yarana biləcək hərbi böhrana müdaxiləsindən sözdə də olsa, danışmaq istəmir. Və yaxud burada başqa məqamlar var.

Əslində, ekspertlər də məhz bu "başqa məqamlar"a daha çox diqqət yetirirlər. Məsələ ondan ibarətdir ki, İrəvan süni və dolaşıq geosiyasi xətti ilə özünü dalana dirəyib. İndi Ermənistan rəhbərliyi müdafiə sahəsində hansı addımı atsa, ziddiyyətlərlə rastlaşır. Gürcüstandakı təlimlərdə iştirak etməməsi də əsasən bununla bağlı idi.

Ekspertlər vurğulayırlar ki, Ermənistan KTMT-nin və Aİİ-nin üzvü kimi müdafiə məsələlərini və təhlükəsizliyini əsas olaraq Moskvanın ixtiyarına verib, KTMT-nin iradəsindən kənar bir addım belə ata bilməz. Ermənistan silahlı qüvvələrinin silah-sursatı Rusiya istehsalı olanlardır. Özü də onları güzəştli şərtlərlə Kreml Ermənistana verir.

# NATO-Rusiya münasibətləri: Cənubi Qafqazda iki "geosiyasi dalan"

Bundan başqa, Rusiya ilə Ermənistan ortaq hərbi qrup da yaradıblar. Ermənistanın sərhədlərinin böyük bir qisimini də Rusiya hərbçiləri qoruyurlar.

Bunlarla yanaşı, Ermənistan rəsmiləri və hərbi rəhbərliyi NATO-nu "vacib tərəfdaş" adlandırırlar. Rusiya isə "strateji tərəfdaş"dır. Belə çıxır ki, dünya miqyasında bir-birinə qarşı düşmən kimi davranan iki böyük dövlətdən biri Ermənistanın "strateji tərəfdaşı", digəri isə "vacib tərəfdaşıdır". Əlbəttə, reallıqda bunun sadəcə söz oyunu olduğunu hamı dərk edir. Cənubi Qafqazda nüfuz uğrunda ciddi mübarizə aparan Amerika ilə Rusiya üçün bu bölgünü aparmaq məntiqsizlikdir.

Rusiya öz strateji müttəfiqinin Amerikanın vacib partnyoru olmasına necə dözə bilər? Absurddur! Və yaxud Rusiyanın strateji tərəfdaşını ABŞ hansı ciddiyyətlə vacib tərəfdaş saya bilər? Özü də Ermənistan rəhbərliyi Suriyaya hərbçilərini məhz Rusiyanın maraqlarına uyğun göndərdiyi bir zamanda hansı tərəfdaşlıqdan bəhs etmək olar?

Belə aydın olur ki, NATO-nun Gürcüstanda hərbi təlimlər kçirdiyi bir vaxtda Ermənistanda "NATO həftəsi" ənənəvi şoudur. Bunu Kremlin hər iki hadisəyə verdiyi reaksiya da təsdiq edir. Gürcüstanda hərbi təlimlər başlamazdan öncə Rusiya və Ermənistanın baş qərargah rəsmiləri V.Gerasimov və A.Davtyanın görüşü olub. Buna qədər isə Rusiya xarici işlər nazirinin müavini Q.Karasin və müdafiə naziri S.Şoyqu demək olar ki, eyni vaxtda Gürcüstana xəbərdarlıq ediblər. Onlar "xoş olmayan gözlənilməzliklər"dən və NATO təlimlərinə Rusiyanın "adekvat reaksiya" verə biləcəyindən bəhs ediblər.

## İrəvan və Tbilisi: iki siyasi kursun bir yanlışı

Vəziyyət aydındır: Rusiyanı qıcıqlandıran bir tədbirdə ermənilər qorxularından iştirak edə bilməzlər. Gürcüstan isə hədələrə baxmayaraq, təlimləri keçirib. Faktiki olaraq, bu hadisəni müdafiə imkanlarının artırılması və böhranlı situasiyaya hazırlıq kimi təqdim edib. Bundan başqa, ABŞ dövlət katibinin müavini A.Vudvord Tbilisiyə səfər edərək müxtəlif sferalarda əməkdaşlığı genişləndirməklə bağlı danışıqlar aparıb. Martın 24-də isə NATO-nun baş katibi Y.Stoltenberq Gürcüstana səfər edib.

Bunlar onu göstərir ki, NATO-nun Gürcüstanla əməkdalığının genişləndirilməsi daha geniş çərçivədə Qərb-Gürcüstan münasibətlərinin inkişafı ilə bağlıdır. NATO ancaq məsələnin təhlükəsizlik və müdafiə blokunu təşkil edir. Tbilisi də həmin istiqamətdə əməkdaşlığı inkişaf etdirməkdə maraqlıdır. Gürcüstan birmənalı olaraq NATO-ya can atır. Rusiya isə həmişə Tbilisini xəbərdar edir.

Belə çıxır ki, Şimali Atlantika Alyansının Gürcüstanda hərbi təlimlər keçirməsi daha geniş miqyasda Vaşinqton-Moskva qarşıdurmasını dərinləşdirə bilər. ABŞ-ın Gürcüstan istiqamətində atdığı addımlar onu göstərir ki, Vaşinqton bu Cənubi Qafqaz ölkəsinin təhlükəsizliyini təmin etməyə çalışır. Lakin bu, Moskvanın xoşuna gəlmir. İstisna deyil ki, bu iki böyük gücdən biri Gürcüstana qarşı təsirli addım atsın. Hər bir halda, bu addım regionda gərginliyin azalmasına xidmət etməyəcək.

Bütün bunlardan ekspertlər Cənubi Qafqaz ölkələrinin xarici siyasəti ilə bağlı maraqlı nəticələr çıxarırlar. Onlar hesab edirlər ki, Azərbaycan dünyanın iki böyük geosiyasi güc mərkəzindən eyni məsafədə mövqe tutmaqla özünün təhlükəsizliyini təmin edə bilir. Onun üçün risklər böyük deyil. Bununla rəsmi Bakı ətrafında dəmir müdafiə səddi yaradıb ki, onu da keçmək asan deyil. Əslində, bu möhkəm müdafiə zolağını keçmək istəyənin özü üçün ciddi təhlükələr meydana gələ bilər (bax: İrina Djorbenadze. Alğəns atakuet Öjnıy Kavkaz / "Rosbalt", 25 mart 2019).

Bunun fonunda isə Gürcüstanla Ermənistanın mövqeyi aşağıdakı kimi xarakterizə edilir: "Nə İrəvan, nə Tbilisi bu yolla (Azərbaycanın seçdiyi yolla - Newtimes.az) getmədilər. Və özlərini dalana dirədilər. Birincisi - Moskva, ikincisi isə - eyni zamanda Vaşinqton və Moskva (dalanına)" (bax: əvvəlki mənbəyə).

Maraqlıdır ki, Ermənistan üçün dalan məsələsində Dağlıq Qarabağ münaqişəsi ayrıca vurğulanır. Yəni rəsmi İrəvan bu münaqişənin həllini də özü üçün çıxılmaz vəziyyətə salıb. Həm də Türkiyə faktorunun regionda təsirinin artması işığında ermənilər üçün risk amilinin daha da artdığı görünür. Real olaraq Moskva da Dağlıq Qarabağ münaqişəsinin həllinə Amerikanın yardım edə bilməyəcəyini vurğulayır. Vaşinqtonda ermənilər üçün bu məsələni həll edə bilməzlər. Deməli, bəri başdan Rusiya Amerika qarşısında ciddi üstünlük əldə etmiş olur. Baxmayaraq ki, hər iki dövlət ATƏT-in Minsk qrupunun həmsədrləri sırasına daxildirlər.

Dağlıq Qarabağ münaqişəsi doğrudan da indi regional təhlükəsizlik baxımından daha da aktuallaşıb. Və İrəvanın bu məsələdə tutduğu qeyri-konstruktiv mövqe ucbatından danışıqlarda bir nəticə əldə edilmir. Təbii ki, böyük dövlətlər bu məqamdan öz maraqları üçün istifadə edə bilərlər və hələlik edirlər də. Yuxarıdakı məqamlardan görünür ki, bu prosesdə Ermənistanın yeritdiyi siyasət kənar qüvvələrə geniş manevr imkanları verir.

Bu cür vəziyyət regionla bağlı hansı nəticəni çıxarmağa imkan verir? Aydındır ki, Cənubi Qafqazda böyük geosiyasi güc mərkəzləri fəallaşıblar. Onlar müxtəlif sferalarda öz maraqlarını təmin etmək üçün konkret addımlar atırlar. Deyilənlərin fonunda regionun bu və ya digər ölkəsinin nə kimi siyasət yeritməsinin əhəmiyyəti də artır. Analiz göstərir ki, hələlik ən konstruktiv mövqeni Azərbaycan tutur. Ermənistan isə hər iki istiqamətdə özünü dalana dirəyib. Gürcüstan da birtərəfli mövqe tutub. Hazırkı vəziyyətdə Ermənistan və Gürcüstanın Azərbaycanın mövqeyinə uyğun seçim etməsi ehtimalı az görünür. Deməli, Cənubi Qafqazda böyük dövlətlərin geosiyasi mübarizəsi davam edəcək.

**Newtimes.az**

# YAP Pirallahı rayon təşkilatı gənclər birliyinin III konfransı keçirilib

***Dünən Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatı gənclər birliyinin III konfransı keçirilib. YAP Pirallahı rayon təşkilatı gənclər birliyinin hesabat dövrü ərzində fəaliyyəti ilə bağlı video-çarx nümayiş etdirilib. Konfrans iştirakçılarını salamlayan YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov qeyd edib ki, gənclik bir millətin yaşaması və inkişafı üçün təməl daşıdır: "Bir millətin mövcud olması üçün onun sağlam gəncliyinin olması vacib şərtdir. Çünki hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Gənclər hər bir cəmiyyətin aparıcı qüvvəsidir".***



H.Şikarov Azərbaycan gəncliyinin seçiminin Yeni Azərbaycan Partiyası olmasının da arxasında, məhz



dövlətçiliyə bağlılıq, milli mənafenin qorunması kimi müqəddəs amallar dayandığını söyləyib: "YAP Ulu Öndər Heydər Əliyev ideyalarının daşıyıcısı, müasir Azərbaycan gəncliyinin güvənc yeridir. Azərbaycan gəncliyinin mütləq əksəriyyəti Ulu Öndər ideyaları ətrafında sıx birləşərək sadiqlik nümayiş etdirir. Gənclərimiz hər zaman Prezident İlham Əliyevin ətrafında sıx birləşməklə, Onun həyata keçirdiyi siyasəti dəstəkləyirlər".

Konfransın gündəliyi oxunduqdan sonra səsvermə yolu ilə təsdiq olundu. Gündəlikdə duran birinci məsələ YAP Pirallahı rayon təşkilatı gənclər birliyinin hesabat dövrü ərzində məruzəsinin dinlənilməsi oldu. Hesabat konfrans nümayəndələri tərəfindən qənaətbəxş hesab olundu. Sonra YAP Pirallahı rayon təşkilatı gənclər birliyinin şura üzvlərinin, yeni sədr və sədr müavinləri seçildi. Pirallahı rayon icra hakimiyyətinin əməkdaşı Əhmədov Rüfət Elmar oğlu sədr, Həşimov Elturan Rauf oğlu və Qəribli Aysel Akif qızı səsvermə yolu ilə sədr müavinləri seçildilər.

Tədbirdə iştirak edən YAP Gənclər Birliyinin sədri Seymur Orucov YAP Pirallahı rayon təşkilatı gənclər birliyinin yeni seçilmiş sədr, sədr müavinləri və şura üzvlərini təbrik edərək, qeyd etdi ki, ölkəmizdə gənclərimizə göstərilən dəstək və diqqət onların öz güclərinə və istedadlarına inam hissini artirib. Bu gün Azərbaycan gəncliyi istər daxili, istər xarici siyasət aparmağı bacarir və ölkə başçısının yaratdığı şəraitdən faydalanırlar.

Tədbirdə çıxış edən millət vəkili Tahir Mirkişili respublikamızda gedən quruculuq işlərində gənclərin fəaliyyətindən, iqtisadiyyatımızın inkişafına verdikləri töhfədən, ölkə başçısının yürütdüyü xarici və daxili siyasəti istər respublika, istərsə də xaricdə layiqincə təbliğ etdiklərini vurğuladı.

Pirallahı rayon icra hakimiyyəti başçısının müavini Anara Hacıbəyli yeni seçilən YAP Pirallahı rayon təşkilatı gənclər birliyinin sədri, sədr müavinlərini və şura üzvlərini təbrik edərək, rayonun ictimai-siyasi həyatında YAP Pirallahı rayon təşkilatı gənclər birliyinin xüsusi rolu olduğunu qeyd etdi.

Konfrans partiyanın ictimai-siyasi həyatında fəallıq göstərdiklərinə görə bir qrup YAP Pirallahı rayon təşkilatı gənclər birliyinin üzvlərinin Fəxri Fərmanlarla təltif olunması və partiya sıralarına yeni qəbul edilmiş gənclərə partiyaya üzük vəsiqəsinin təqdim olunması ilə yekunlaşdı.

***Rövşən Nurəddinoğlu***

# Yanğından zərər çəkmiş sahibkarlara ödənişlərin verilməsi üçün sənədlərin qəbuluna başlanılıb



"Diqlas" ticarət mərkəzində baş vermiş yanğından zərər çəkmiş sahibkarlara ödənişlərin verilməsi üçün sənədlərin qəbuluna aprelin 4-dən başlanılır. Bu barədə jurnalistlərə müsahibəsində iqtisadiyyat naziri Şahin Mustafayev deyib. Nazir bildirib ki, ödənişlər "Kapital Bank" və "Turan Bank" vasitəsilə həyata keçiriləcək. Vəsaitlər sahibkarlara bank kartları vasitəsilə nağdsız şəkildə veriləcək və banklar maddi yardımdan xidmət haqqı tutmayacaq. "Artıq 20 sahibkar onlara təklif edilmiş ticarət mərkəzlərində yerləşdirilib. Bu günə olan məlumata görə, 100-dən çox sahibkar kredit almaq üçün müraciət edib. Kreditlə bağlı 14-15 milyon manat kreditə bağlı tələb ortaya çıxıb. Biz bu tələbi qarşılamağa hazırıq. Sahibkarlığın İnkişafı Fondunda kifayət qədər vəsait var. Ziyanın məbləği tam bəlli olduqdan sonra hökumətdə yaradılmış komissiya tərəfindən sahibkarlara dəyən ziyan tam ödəniləcək", - deyə nazir vurğulayıb.



# "Azərbaycançılıq, dövlətçilik-dövlətçiliyə sədaqət ideyalarının təbliği""

## YAP Qobustan rayon təşkilatında geniş şura iclası keçirilib

***Yeni Azərbaycan Partiyasınının Qobustan rayon təşkilatının şura iclası keçirilib. Şura iclasında "Azərbaycançılıq, dövlətçilik dövlətçiliyə sədaqət ideyalarının təbliği" sahəsində görülən işlər və qarşıda duran vəzifələr" mövzusunda YAP Qobustan rayon təşkilatının sədri Füzuli Güləliyev çıxış edərək, qeyd edib ki, Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub-saxlamaq və möhkəmləndirmək dövlətçiliyin əsas atributlarındandır: "Azərbaycançılıq və dövlətçilik ideyalarının təbliği bu gün Prezident İlham Əliyevin xarici və daxili siyasətində başlıca yer tutur. Dövlətimizin başçısı xarici ölkələrə səfərləri zamanı soydaşlarımızla görüşlərə xüsusi diqqət ayırır, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında soydaşlarımızı daha fəal olmağa çağırır və bu istiqamətdə məqsədyönlü işlər aparır".***

Şura iclasında rayon təşkilatının şura üzvlərindən Əlibəy Abdiləzizov, Mahir Soltanov, Mehman Əhmədov, YAP fəallarından Vüsalə Məmmədova, Əlisa Hacıyev, Telman Mustafayev və digərləri çıxış edərək, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xətti bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyevin siyasi iradəsi əsasında Azərbaycanda daha aktiv fazaya daxil olub: "Cənab Prezidentin siyasətinin təməlində vətəndaşın dayandığı göstərilir. Azərbaycan vətəndaşı əmindir ki, ən ağır durumunda belə dövləti və Prezidenti onun arxasındadır. Təbii ki, bu da ölkəmizdə yaradılan dövlət-xalq birliyinin təcəssümüdür. Cənab Prezidentimiz hər zaman vurğulayır ki, Azərbaycan sosial dövlətdir. Bunun anlamı isə, ilk növbədə, vətəndaşlarımızın sosial problemlərinin təmin edilməsini özündə ehtiva edir. Bu gün aparılan islahatlar, atılan addımlar və qəbul edilən dövlət proqramları da bu dediklərimizin əyani sübutudur".

***Rəfiqə***

# Yanvar-mart aylarında 352 nəfər əlilliyi olan şəxs özünüməşğulluq proqramına cəlb edilib



Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən icra olunan özünüməşğulluq proqramında iştirak etmək üçün müraciət edənlər arasında həssas qruplara aid vətəndaşlara, o cümlədən əlilliyi olan şəxslərə xüsusi üstünlük verilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildirilib ki, cari ilin yanvar-mart aylarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən 352 nəfər əlilliyi olan şəxs kiçik ailə təsərrüfatlarını yaratmaq üçün potensialları nəzərə alınmaqla bu proqrama cəlb olunub. Onlardan bir qismi kiçik biznes fəaliyyətinin qurulmasına dair zəruri bilik və bacarıqlara malik olmaları üçün bir aylıq təlim kurslarında iştirak edir.

Kursları uğurla başa vuran və qiymətləndirmə zamanı biznes-planları müsbət dəyərləndirilən şəxslər ailə təsərrüfatlarını yaratmaq üçün aktivlərlə (mal və materiallarla) təmin olunacaqlar. Hazırda əlilliyi olan şəxslərin proqrama cəlb olunması işləri davam etdirilir. Xatırladaq ki, ötən il özünüməşğulluq proqramı iştirakçılarından 1000 nəfərini əlilliyi olan şəxslər təşkil edib.

# Kiyevdə Nəsiminin heykəli ucaldılacaq



Kiyev Şəhər Dövlət Administrasiyası xalqımızın çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin heykəlinin ucaldılmasına dair rəsmi qərar verib. Dövlət Administrasiyasından AZƏRTAC-a bildiriblər ki, Azərbaycanın Ukraynadakı səfirliyinin sifarişi ilə Kiyevdə mərkəzi parkların birində İmadəddin Nəsiminin heykəlinin ucaldılmasına dair qərar səfirliyə təqdim olunub. Onu da qeyd edək ki, heykəlin müəllifi Ukraynanın Xalq rəssamı, tanınmış heykəltəraş həmyerlimiz Seyfəddin Qurbanovdur. Tuncdan hazırlanan heykəlin hündürlüyünün 5 metrə yaxın olacağı nəzərdə tutulur.

# Ermənistanda əhalinin hakimiyyətdən narazılığı getdikcə artır

***Ermənistanda ictimai-siyasi vəziyyət gərgin olaraq qalır. Dilicanda narazı kütlə Yerevan-Dilican magistral yolunu dörd saata yaxın bağlı saxlayıb.***

AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, etirazçıların əsas narazılıqları yerli sakinlərin pay torpaqlarının kütləvi şəkildə bəzi oliqarxlar tərəfindən saxta yollarla özəlləşdirilərək mənimsəmələri ilə bağlıdır. İddia olunur ki, onlar indi çarəsiz vəziyyətədirlər. Bunun günahını isə etirazçılar Dilicanın icra başçısı Armen Santrosyanda görürlər.

















Bundan başqa, Dilican sakinləri Tavuş vilayətinin hüquq-mühafizə sisteminin işindən də narazıdırlar. Narazı kütlə vilayətin məhkəmə sisteminin çıxardığı saxta qərarlardan artıq beziblər. Ümumiyyətlə, bölgənin bitib-tükənməyən problemləri gündən-günə artır. Vətəndaşların şikayətlərinə baxan yoxdur. Dilicanlılar çıxış yolunu Yerevan-Dilican magistral yolunu bağlamaqda görüblər. Yüzlərlə maşın bir müddət tıxacda qalmalı olub. Azərbaycanın işğal altında olan Xankəndi şəhərində yaşayan ermənilər də işğalçı ölkədən narazılıq edirlər. Ermənistanın 1-ci kanalına müsahibə verən şikayətçilər jurnalistlərin Aprel döyüşləri ilə bağlı suallarını cavablandırıblar. Əhalinin mütləq əksəriyyəti 3 il əvvəl baş verən hadisələri çox acı hisslərlə xatırlayır. Bildirilir ki, həmin vaxt Xankəndidə tabut əlindən yer yox idi. Aprel döyüşlərində ayaqlarını itirən əlil hərbçi isə Yerevanda keçirilən anım mərasimində hökumətin laqeydliyindən şikayətlənib: “Mən 2 ay idi ki, Lori bölgəsindən hərbi xidmətə çağırılmışdım. Yerevandan Qarabağ bölgəsinə göndərildim. Bir həftə Xankəndidə saxladıqdan sonra məni cəbhə xəttinə apardılar. Ancaq Müdafiə Nazirliyinin hərbi nizamnaməsində bildirilir ki, orduya çağırılan, ən azı 6 ay təcrübəsi olmayan əsgərləri cəbhə xəttinə göndərmək olmaz. Üç il bundan əvvəl baş verən Aprel döyüşlərində iki ayağımı itirdim. Biz xeyli itkilər verdik. Bunun əsas səbəblərindən biri döyüş meydanında silah-sursatın olmaması idi. Nəticəsi isə göz qabağındadır. Çox istəyərdim ki, ailəmi normal dolandırmaq üçün biz əlillər üçün iş yeri açılsın. Ailəmi dolandırmaqda çox çətinlik çəkirəm”.

Bundan başqa, Ermənistanın baş naziri Nikol Paşinyan 1 mart hadisələri ilə bağlı ifadə verib. Onun dindirilməsi prosesi Yerevanın Şenqavit rayon məhkəməsində keçirilib. Paşinyan istintaqa hadisələrlə bağlı şahid qismində müəyyən məlumatlar təqdim edib. Bildirib ki, 11 il əvvəl Sarkisyan rejimi Ermənistanda hakimiyyəti zorla ələ keçirib. Dövlət terroru nəticəsində 10-dan çox dinc nümayişçi öldürülüb, 150-dən artıq etirazçı yaralanıb. Bu müddətdə Ermənistan rəhbərlərinin yeritdiyi siyasətin təməlində zorakılıq, narkoticarət və despotizm ön sırada dayanıb. Ona görə də cinayətkar qruplaşma həm ölkə, həm də Beynəlxalq İnsan Haqları Məhkəməsi qarşısında cavab verməlidir. Artıq 1 mart hadisələri ilə bağlı sabiq prezident Robert Koçaryan həbs olunub. Sabiq prezident Serj Sarkisyanı, keçmiş müdafiə naziri Seyran Ohanyanı, general-polkovnik Yuri Xaçaturovu və keçmiş baş nazirin müavini Armen Qevorkyanı da eyni aqibət gözləyir.

## Özbəkistan mətbuatı: “Azərbaycan Qərb və Şərq sivilizasiyalarını bağlayan körpü”

Özbəkistanın interpress.uz portalı özbək dilində Şərafəddin Tulaqanovun “Azərbaycan Qərb və Şərq sivilizasiyalarını bağlayan körpü” sərlövhəli məqalə yayıb. AZƏRTAC xəbər verir ki, məqalə bu yaxınlarda Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə bir qrup özbək jurnalistin Azərbaycana mediaturu çərçivəsində hazırlanıb. Materialda bildirilir ki, özbək jurnalistləri mediatur çərçivəsində Qusar rayonundakı “Şahdağ” Turizm Mərkəzində olub, bu füsunkar məkanın gözəlliyinə tamaşa ediblər. Bildirilir ki, “Şahdağ” dəniz səviyyəsindən 1300-2300 metr yüksəklikdə yerləşir və 2 058 hektar ərazini əhatə edir. Bildirilir ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə inşa edilən “Şahdağ” Turizm Mərkəzində yayda və qışda turistlərin mənalı istirahəti üçün hər cür şərait yaradılıb.




Sonra jurnalist Quba rayonundan söhbət açır, bu məkanın məşhur Quba alması haqqında danışır, bildirir ki, rayonda 134 tarixi arxeoloji abidə var. Yazıda Quba soyqırımı məzarlığından ürək ağrısı ilə danışılır. Diqqətə çatdırılır ki, bu məzarlıq aşkar edildikdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2009-cu ildə burada muzey yaradılmasına başlanıb və 2013-cü ildə dövlət başçısının iştirakı ilə istifadəyə verilib. Qeyd edilir ki, muzeydə Bakı, Şamaxı, Göyçay və digər ərazilərimizdə ermənilər tərəfindən törədilən soyqırımlar haqqında da məlumat verilir.

## Ermənistanda vəkil rüşvətə görə həbs edildi



Ermənistanda vəkil Vaaqn Danielyan saxlanılıb. “Report” Ermənistan mətbuatına istinadən xəbər verir ki, bu barədə ölkənin Xüsusi İstintaq Xidməti məlumat yayıb. Məlumata görə o, hakimə rüşvət verməkdə şübhəli bilinir.

Qeyd edilir ki, Vaaqn Danielyanın rüşvət verdiyi hakim Qaqik Eboyan da cinayət başında saxlanılıb. İstintaqın məlumatına görə, hakim iddiaçının xeyrinə qərarın qəbulu üçün 3,5 min dollar məbləğində rüşvət tələb edib. Amma o, sonra daha bir qədər kiçik məğləğdə rüşvətə - 2,5 min dollara razılaşıb. Tərəfin pulunun ötürülməsi üçün vəkilin xidmətlərindən istifadə ediblər. Vəkil bir neçə gün əvvəl rüşvəti hakimə verib. Qaqik Eboyan faktla bağlı həbs olunub. Daha əvvəl məlum olub ki, 2018-ci ildə Ermənistanda korrupsiya ilə bağlı istintaq orqanlarının icraatında olan işlər çərçivəsində 960 şəxs məsuliyyətə cəlb edilib.

## Mnatsakanyan: “Mən, müharibə olacağını deməyə məcburam”



“Bu məsələnin həlli gec və ya tez baş verəcək hərbi əməliyyatlardan keçir”. Erməni KİV-ləri xəbər verir ki, bu sözləri Ermənistanın işğal altında olan Qarabağda qanunsuz formalaşdırdığı hərbi birləşmənin sabiq komandiri Levon Mnatsakanyan deyib. Onun sözlərinə görə, vəziyyətin kənardan baxarkən sakit olduğunu demək olar, lakin Azərbaycanın davamlı olaraq silah aldığı nəzərə alınmalıdır. Hər gün ölkəmizinin yeni silah nümunələri əldə etməklə, silah anbarını genişləndirdiyini qeyd edən Mnatsakanyan, Ordumuzda hər gün bu silahların mənimsənilməsi üçün məşqlərin keçirildiyini bildirib. O, bu təlimlərdə Azərbaycanın müxtəlif ölkələrdən təlimatçılar cəlb etdiklərini qeyd edir. “Qarabağın (qondarma qurum-red.) müstəqilliyinin de-yure olaraq təsdiq edilməsi üçün müharibə olmalıdır. Azərbaycan Qarabağa de-yure müstəqillik verməyəcək. Bu məsələnin həlli gec və ya tez baş verəcək hərbi əməliyyatlardan keçir”, - deyə o ötən gün Tonoyan tərəfindən edilən təxribatçı bəyanatın əsl qayəsini açıqlayıb.

# Müxalifəti ağılsız şəxslər idarə edir

**_Müxalifətdaxili qarşıdurmalar, bir-birini təhqir etmələri hər zaman olub və bu gün də eyni proseslər davam etməkdədir. Müsavat-AXCP qarşıdurması fonunda "Azərbaycan Xalq Hərəkatı" adlı qondarma qurum daxilində baş verən son dava-dalaş müxalifətin dəyişməz ampluada olduğunu göstərir. "AXH"-də özünü banda başçısı kimi aparan AXC hakimiyyətinin sabiq daxili işlər naziri İsgəndər Həmidov Milli Dövlətçilik Partiyasının sədri Nemət Pənahının hərəkatın idarə heyəti üzvlüyündən çıxarılması məsələsini qoyub._**



"AXH"-nin dönəm sədri, "AĞ" partiyanın başqanı Tural Abbaslı, VİP sədri Əli Əliyev və keçmiş hərəkatçı Bəxtiyar Tuncay N.Pənahlının çıxarılmasının əleyhinə, digər üzvlər lehinə olublar. Səsvermə nəticəsində N.Pənahlı AXH-dən uzaqlaşdırılıb. T.Abbaslının N.Pənahlını müdafiə etməsindən hiddətlənən İ.Həmidov T.Abbaslının "AXH"-nin idarə heyətindən uzaqlaşdırılması təklifini verib. T.Abbaslı təklifin əleyhinə çıxaraq, bunun hərəkatın əsasnaməsinə zidd olduğunu bildirib. İ.Həmidovun təklifi keçməyib və AXH-nin dönəm sədri idarə heyəti üzvü kimi qalıb. Bundan sonra hər iki siyasətçi arasında qarşıqlı ittihamlar səslənib. T.Abbaslı tərəflər arasında qarşıdurma yaranıb və İ.Həmidov T.Abbaslını sabiq səhiyyə naziri Əli İnsanova "ağsaqqalım" deməkdə ittiham edib. Bununla da, qarşıdurma daha da artıb. İ.Həmidov T.Abbaslıya hücum edərək, onu vurmaq istəyib. Beləcə, iclas dava-dalaş səbəbindən öz işini yarımçıq başa çatdırmalı olub. Söhbət etdiyimiz müsahiblərimiz belə qarşıdurmaların müxalifət başbilənlərinin xarakterinə və anormal siyasi fəaliyyətlərinə uyğun olduğunu bildirdilər.

<u>AMİP funksioneri Əli Orucov:</u>
**"Baş verən bu insident heç də müxalifətə uğur gətirməz "**

- "Azərbaycan Xalq Hərakatı"nın son toplantısında T.Abbaslı-İ.Həmidov qarşıdurmasının baş verməsi gözlənilən idir. Çünki belə qarşıdurmalar hər dəfə olub və bu gün də eyni proseslər davam etməkdədir. Əslində, baş verən bu insident heç də müxalifətə uğur gətirməz, əksinə, daha böyük sarsıdıcı zərbə olacaq. Müxalifət daxilində də rəqabət, fikir, ideya çəkişməsi ola bilər, lakin bütün bunlar etik qaydalardan kənara çıxmamalıdır. Hər halda, bu hadisəni "AXH"-daxili hadisə hesab edirəm. Düşünürəm ki, özlərinə də xoş gəlmədi. Belə halların təkrarlanmasını isə arzu etməzdim. Yaxşı olardı ki, bir də belə hallar təkrarlanmasın.

<u>Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli:</u>
**"Müxalifətin bir-birini dinləmək qabliyyəti yoxdur"**

- Bunlara bənzər davranışlarını, yəni bir-birinə əl-qol qaldırılmasını adi müzakirə aparmaq qabliyyətlərinin və bacarıqlarının olmaması və s. çılğın davranışları və hərəkətləri bir tədbirdə baş vermiş hadisə deyil. Əgər biz müxalifətin 26 illik fəaliyyət dövrünə baxsaq, görərik ki, bunlar bu müddətdə elə belə olublar. Yəni dəyişməz ampluadadırlar. Bu illər ərzində, 30-a yaxın birlik forması yaradıblar və bütün o birliklərin hamısı acınacaqlı tərzdə parçalanıb. Ona görə ki, bir-biri ilə dil tapa bilməyiblər, daimi davadalaşda olublar, bir-birlərini dinləmək qabliyyətləri, bacarıqları olmayıb və nəticədə də, iflasa uğrayıblar. Yəni bu, onların bir xarakterik xüsusiyyətidir. Bunlar bir il hakimiyyətdə olublar və bir illik hakimiyyətləri dövründə də belə davranıblar və nəticədə də, o bir illik hakimiyyətləri də iflasa uğrayıb. Bu baxımdan, baş verən hadisənin mahiyyəti belədir, belə davranırlar və belə də davam edəcəklər.

<u>Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov:</u> **"Müxalifətin hərəkətləri cəmiyyətdə ürək bulandırır "**

- Azərbaycanda özünü müxalifət adlandıran toplumun təşkil etdiyi toplantılarda və ya onların qatıldıqları debatlarda hər zaman bu kimi xoşagəlməz hallar müşahidə olunub. Hətta bunların təmsil etdikləri 2 illik uğursuz hakimiyyətləri dövründə də söyüş və təhqir leksikonlarında həmişə istifadə olunubdur. İsgəndər Həmidov general rütbəsi daşıyan, ölkənin daxili işlər nazirliyinə rəhbərlik edən şəxs olub, lakin bu adam hər zaman mədəniyyət və etika çatışmamazlığı sindromundan əziyyət çəkib. Bu onu bir cümlə ilə xarakterizə etmək kifayətdir: İsgəndər Həmidov general rütbəsi daşısa da, heç zaman sıravi milisioner düşüncəsindən və səviyyəsindən yuxarı qalxa bilmədi. Fikirləşirəm ki, bu ifadə onun boyuna mükəmməlliklə biçilmişdir, onun təmsil olunduğu hakimiyyətin nüfuzsuzluğunun, məğlubiyyətinin və iflasının başlıca səbəbi də, məhz onun kimi adamların həmin hakimiyyətin ən yuxarı eşalonunda təmsil olunmaları idi. Xalqa əxlaq dərsi keçmək iddiasında olan bu adam ahıl yaşında yenə də öz ampluasındadır və gördüyü işlər də, hər zamankı kimi, mənasız fəaliyyətdən başqa bir şey deyildir. Maraqlıdır ki, bu kimi adamların çevrəsində böyüyən, onlardan "dərs" alan gənclər də təxminən eyni səviyyədə olan adamlardır. Bu gənclərin konkret nümunələrindən olan Tural Abbaslı ilə təxminən 12 il öncə, gənclər və idman naziri Azad Rəhimovun gənclər təşkilatlarının görüşündə qarşılaşmışam. Bu cavan oğlanın danışıq tərzi, özünü aparması, yekəxana hərəkətləri görüşdə iştirak edən hər kəs kimi, məndə də təəssüf hissi doğurdu. İndi üstündən illər keçsə də, Tural Abbaslı dəyişməyib və hesab edirəm ki, öz üzərində çalışmayan, özünü "görə" bilməyənlər kimi, dəyişə də bilməzdi. Başına 3-5 nəfər yığıb özünə partiya yaradaraq, özünü guya müxalifət təşkilatı kimi təqdim etmək istəyir. Mən inanmıram ki, Azərbaycan insanı bu kimi düşüncə sahiblərini nə vaxtsa qəbul edəcək. Həm İsgəndər Həmidov, həm Tural Abbaslı və onun kimilər hər dəfə danışdıqca, özlərini təkrar-təkrar biabır edirlər. Onların hərəkətləri cəmiyyətdə ürək bulandırmaqdadır. Görün hakimiyyətə gəlmək və bu dövləti idarə etmək iddiasında olan bu adamlar nə səviyyədədirlər?! Argumentlərinin nə elmi, nə də hüquqi əsasları olmayan bu çayxana səviyyəsində olan adamların siyasi iddiaları, təbii ki, boyunlarından yüksəkdə dayanır.

***GÜLYANƏ***

# Əli Kərimlinin erməni fitnəkarlığı

*<u>Siyavuş Novruzov:</u> "Təəccüb doğurmur, çünki Əli Kərimlinin ipi erməni lobbisinin əlindədir"*

**_"Adımı sənə qoydum, səni də yana-yana" bax, buna deyərlər e! Əsas məsələyə keçməmiş, hamımızın hələ sovet dövründə mağaza müdirlərinə "zavmaq" deyirdilər. Bu, o vaxtlar idi ki, bir iş görmək istədikdə, az qala Kremlə belə ərizə yazmalıydın. Məhəlləmizdə də "zavmaq"lar çox idi. Onların da çoxu erməniydi. Hər cürə şəraitləri var idi, istədiklərini də edirdilər. Onlardan biri hər dəfə həyətə girəndə, "Mersedes"inin siqnalının səsi ətrafı bürüyürdü. Qonumqonşu nə qədər bu adamdan sahə müvəkkilinə şikayət edirdisə, xeyri olmurdu. Rüşvətini verib, kefini çəkirdi erməni köpəyinin balası. Sonradan bəlli oldu ki, bu erməni köpək balası rüşvət hesabına işini həll edirmiş. Qarabağ məsələsi ortaya düşəndə, bu erməni köpək balası şələ-şüləsini yığışdırıb, köçüb Yerevana..._**




Sözümün canı odur ki, ömrü boyu erməni köpəyoğlu kimi bu gün də xarici ağalarına nökərçilik edən AXCP sədri Ə.Kərimli aprel ayının əvvəllərində Qarabağda başlayan və uğurlu əməliyyatlarla nəticələnən qısamüddətli savaşı elə həmin bu erməni köpək balalarının istədiyi tərzdəcə qaralamağa cəhd etdi. Görəndə ki, paxırının üstü açılır, özü elədiyi qələtləri hakimiyyətin üstünə atmağa başladı.

### Ağrı dağı boyda daş düşsün Əli Kərimlinin başına

Belə alçaq, xəyanətkar və mənəviyyatsız Ə.Kərimliyə nə deyim?! Hələ də bu günə kimi, Ə.Kərimlinin xaricə "istehsal" etdiyi "siyasi mühacirləri"nə tapşırıq verərək dövlətimizə, xalqımıza qarşı böhtanlar deməsi və müharibə çağırışları etməsi deyilənləri təsdiqləmir ki? Bu, o Ə.Kərimlidir ki, həyatı boyu erməni bicliyi ilə erməni həyasızlığı və işverənlik edib. İndi bu gün başlayıb ki, "sosial şəbəkələr də iddia edir ki, dünyada, o cümlədən, Avropada böhran yoxdur,dünyada heç bir böhran hökm sürmür" deməyə. Fikirləşir ki, aprelin 6-na təyin etdikləri mitpinqdə (ürəyində qalsın-R.) bunu desələr, bəlkə nəyəsə nail ola bilərələr. Ay bədbəxtlər, nə qədər xəyallarla yaşayacaqsınız?

**"Ə.Kərimli 5-3 nəfər qaçaq-qulduru başına yığıb mitinq keçirməklə, növbəti biabırçılıq nümayiş etdirmək istəyir"**

YAP İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov müxalifətin nəsə deməyə əsasının olmadığını bildirib: "Xüsusilə, AXCP sədri Ə.Kərimlidən nə gözləmək olar? Ə.Kərimlinin fikirləri erməni lobbisinin, Azərbaycanı istəməyən dövlətlərin, ölkəmizə qarşı təzyiq göstərməyə çalışan beynəlxalq qurumların fikirləri ilə üst-üstə düşür. Yəni bunlar eyni mənbədən istiqamətləndirilir. AXCP-dən istefa verən şəxslər də bildiriblər ki, Ə.Kərimli Azərbaycan xalqının maraqlarının deyil, başqa-başqa dövlətlərin, qurumların, xüsusilə, erməni lobbisinin maraqlarını həyata keçirməklə məşğuldur. O baxımdan, ölkədə görülən işlərə kölgə salmaq, mənfi fikir söyləmək, çox primitiv şəkildə, saxta rəqəmlərlə insanları çaşdırmaq, bilavasitə həmin təxribatçı qrupların planının tərkib hissəsidir". S.Novruzov onu bildirib ki, Ə.Kərimli sübut etməyə çalışır ki, dünyada iqtisadi böhran yoxdur: "Hazırda bütün Şərqi Avropa, eləcə də, Avropanın digər hissəsinə aid olan ölkələr böhran içərisindədir. Elə təkcə Yunanıstanı götürək ki, hansı vəziyyətdədir. Ə.Kərimlinin Böyük Britaniya banklarında milyonlarla pulunun olması sübut olunub. Övladları ən bahalı universitetlərdə oxuyub, xaricdə bahalı evləri, mülkləri var. Bunları hansı vəsait hesabına əldə edib: satqınçılıq, erməniyə nökərçilik etməklə. Ə.Kərimli 5-3 nəfər qaçaq-quldurу başına yığıb nbvbəti biabırçılıq etmək istəyir. Çünki cəmiyyət onları qəbul etmir. Ona görə də, onlar tarixin arxivinə, özü də qara arxivinə birdəfəlik gedəcəklər. Çünki o, erməni lobbisinə xidmət edən, onlardan qrant alan bəzi insanlarla əlbir olub. Leyla Yunus kimi casusları canfəşanlıqla müdafiə etməsi də buradan qaynaqlanır".

Göründüyü kimi, belə olan halda, onların birləşmələri, formalaşmaları absurddur, hətta özləri də buna inanmırlar.

***Rəfiqə HÜSEYNOVA***

# 20 cinayətin üstü "isti izlər"lə açılıb



**_Aprelin 2-dən 3-dək daxili işlər orqanlarında qeydə alınmış cinayət və hadisələr haqqında statistik məlumat açıqlanıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, respublikanın daxili işlər orqanları tərəfindən gün ərzində 20 cinayətin üstü "isti izlər"lə açılıb. Əvvəlki dövrlərdən bağlı qalmış 5 cinayətin açılması təmin olunub._**

Axtarışda olduğuna görə ümumilikdə 7 nəfər, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 1 nəfər, borclu şəxs qismində axtarışda olan 2 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Respublikanın avtomobil yollarında 1 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 1 nəfər ölüb.

Daxili işlər orqanlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 8, qanunsuz saxlanılan silah-sursatla bağlı 2 fakt müəyyən edilib. Cinayət törətməkdə şübhəli bilinən 23 nəfər saxlanılıb.

# Müsəlman ölkələrində cəza hüququ və Azərbaycanda ölüm hökmünün ləğv olunması

***İslam dövlətlərində cəza sistemində ölüm cəzasının nəzərdə tutulması həmin xalqların əxlaq səviyyəsinin bu cəzanı ləğv etmiş xalqların əxlaq səviyyəsindən aşağı olmasından irəli gəlmir, birbaşa olaraq, müsəlmanların həyat və davranışlarının, ilk növbədə, məhz əxlaqi prinsiplərinin müdafiəsinə yönələn “Qurani-Kərim”dən irəli gəlir.***

Hüquq elmləri doktoru, professor İlham Rəhimov yazır: “İslamda cəza, bundan çıxış edərək, beş əsas dəyərin müdafiəsinə yönəlmişdir: dinin, həyatın, idrakın, nəslin və mülkiyyətin. Ona görə də, iki yetkinlik yaşına çatmış şəxsin uşaqbazlığına görə ölüm cəzası, insan düşüncəsinə mühüm zərər yetirən, onu deqradasiyaya uğradan sərxoşluğa görə, 80 qamçı zərbəsi nəzərdə tutulmuşdur. Cəzanın rolu müsəlmanların bütün icmanın firavanlığının asılı olduğu əxlaqi vəziyyətinin müdafiəsindən ibarətdir. Cinayətkarlığa qarşı mübarizənin nəhəng gücü, şübhəsiz, burada cəmləşmişdir”.

İslama görə, milləti pozan homoseksualizm cinayətinə görə sərt cəza olmalıdır. Müasir islam alimi Nadiya əl-Əvadi homoseksualizmin qan xəstətikləri ilə əlaqəsinə dair statistik məlumatları nəzərdən keçirərək yazmışdır: “Bu rəqəmlərə baxdıqca, Allahın Sodomu məhv etməsinin bütün bəşəriyyətə Onun mərhəmətinin təzahürü olduğunu düşünməyə başlayırsan. Çünki bu şəhərdən yer üzünə hansı dəhşətli xəstəliklərin yayıla biləcəyi məlum deyildir. Təbabət o dövrdə çox aşağı səviyyədə olduğundan, bu xəstəliklər planetin bütün əhalisini məhv edə bilərdi”. İ.M.Kleymyenov, düzgün olaraq göstərmişdir ki, “İslamın antikriminoloji potensialı mənəviyyatın əxlaq qanunu kimi başa düşülməsi ilə şərtlənir. Müsəlman üçün mənəviyyat pislik və yaxşılıq haqqında subyektiv (dəyişkən) təsəvvürlərin məcmuyu deyildir və mənəviyyat Allah tərəfindən bəxş olunmuş və praktiki əhəmiyyətə malik obyektiv qüvvədə mövcud olan dəyişməz qanundur. Günah əxlaqi qanuna qarşı törədilən cinayətdir”. İslam dünyasının bəzi dövlətlərini çıxmaq şərtilə müasir dünyəvi dövlətlərdə cinayət qanunveriliyi, xüsusən, cəzanın sistemi islamın ənənəvi hüququna əsaslanmır. Məsələn, Sudanda “dişə-diş” talion prinsipindən istifadə hələ də davam edilir. İranda qəsdən adamöldürmə cinayəti əvvəlki kimi, ölüm cəzası növündə qisası və ya qanunla müəyyən olunmuş əsaslar mövcud olduqda, müəyyən məbləğdə kompensasiyanın ödənilməsini doğurur.

Səudiyyə Ərəbistanında cəzanın sisteminə ölüm cəzası ilə yanaşı, bədən cəzaları da daxildir. Bu ölkənin həbsxanalarında təxminən 26 min məhkum var ki, onların yarısı, təxminən 46%-i xaricilərdir. 1987-ci ildə Səudiyyə Ərəbistanında narkotiklərin qaçaqmalçılığına görə ölüm cəzası müəyyən edildikdən sonra, ölkədə onlarla xarici vətəndaş boynun vurulması yolu ilə edam olunmuşdur. Sərt cəza sistemi, o cümlədən, ölüm cəzası, məhz güclü islam ənənələri olan ölkələrdə qorunub saxlanılır. 2012-ci ildə Küveytin cinayət qanunvericiliyinə edilən dəyişikliyə görə, kafirlik və ya Məhəmmədin (s.a.v) təhqir edilməsi əməllərini törətmiş şəxs məhkəmədə bunu etiraf edirsə və bu sözlərinin üstündə durub, fikrindən imtina etmirsə, ölüm cəzasına məruz qalır. Sudanın həkimi Meriyam Yayha İbrahimin islama dönüklüyünə görə asılmaqla ölüm cəzasına məhkum edilməsi və sonradan bağışlanılması hadisəsi yada düşür.

“Qurani-Kərim”ə görə, cəzanın mahiyyəti xeyli böyük inteqrasiya olunmuş bütövün yalnız hissəsidir. O, ədalət mühakiməsi anlayışının ayrılmaz hissəsidir. Cəzanın əhəmiyyəti və funksiyaları, ilk olaraq, cinayət anlayışına münasibətilə müəyyən olunur. Başlıcası odur ki, “Qurani-Kərim”ə görə, cəzanın təyinatı Allahın müəyyən etdiyi sərhəddən kənara çıxan hərəkətləri aşkar surətdə mühakimə etməklə, cəmiyyətdə ədalət hissinin təmin edilməsidir.

Hüquqi və dünya dövləti olan Azərbaycan Respublikasında ölüm cəzasının ləğv olunması ilə əlaqədar Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual və İslah-Əmək Məcəllələrinə dəyişikliklər və əlavələr edilməsi haqqında 1998-ci il fevralın 10-da Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə Azərbaycan Respublıkasının Qanunu qəbul edilmişdir.

Qanunun 22-ci maddəsi “Ömürlük azadlıqdan məhrumetmə” adlanır. Bu məcəllədə, xüsusi olaraq, nəzərdə tutulmuş hallarda ömürlük azadlıqdan məhrumetmə cəzası müəyyən edilir.

Cinayət edənədək on səkkiz yaşına çatmayan şəxslərə və qadınlara ömürlük azadlıqdan məhrumetmə cəzası təyin edilmir. Ömürlük azadlıqdan məhrumetmə cəzası əfv qaydasında on beş ildən çox, lakin iyirmi ildən çox olmayan müddətə azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilə bilər.

Ömürlük azadlıqdan məhrumetmə cəzası bütün cəza müddətində həbsxanada saxlanılmaqla təyin olunur”.

23-ü maddədə yazılıb: maddənin adı aşağıdakı redaksiyada verilsin:

“Müəyyən müddətə azadlıqdan məhrumetmə” maddəsinin birinci hissəsindən “Ölüm cəzası bağışlama qaydasında on beş ildən də çox, lakin iyirmi ildən çox olmayan müddətə azadlıqdan məhrumetmə ilə əvəz edilə bilər” sözləri çıxarılsın.

44-cü maddənin dördüncü hissəsi aşağıdakı redaksiyada verilsin: “Ömürlük azadlıqdan məhrumetmə cəzası təyin edilə bilən şəxs barəsində cinayət məsuliyyətinə cəlbetmə müddətinin tətbiq edilməsi məsələsini məhkəmə həll edir. Əgər məhkəmə cinayət məsuliyyətinə cəlbetmə müddətini tətbiq etməyi lazım bilməzsə, ömürlük azadlıqdan mərhumetmə cəzası təyin oluna bilməz və bu, müəyyən müddətə azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilir”.

45-ci maddənin üçüncü hissəsi aşağıdakı redaksiyada verilsin:

“Ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş şəxs barəsində ittiham hökmünün icrası müddətinin tətbiq edilməsi məsələsini məhkəmə həll edir. Əgər məhkəmə ittiham hökmünün icrası müddətini tətbiq etməyi lazım bilməzsə, ömürlük azadlıqdan məhrumetmə cəzası müəyyən müddətə azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilir”.

50-1 maddənin 4-cü bəndi aşağıdakı redaksiyada verilsin:

“Ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş, habelə, ömürlük azadlıqdan məhrumetmə cəzası əfv qaydasında müəyyən müddətə azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilmiş şəxsə şamil edilir”.

Cinayət Məcəlləsinin 57-ci maddəsinin birinci hissəsinin, 57-1-ci maddəsinin ikinci hissəsinin, 58-ci maddəsinin, 59-cu maddəsinin birinci hissəsinin, 61-ci maddəsinin, 70-ci maddəsinin, 70-2 maddəsinin üçüncü hissəsinin, 94-cü maddəsinin, 109-cu maddəsinin dördüncü hissəsinin, 212-2-ci maddəsinin üçüncü hissəsinin, 212-3-cü maddəsinin üçüncü hissəsinin, 255-ci maddəsinin “V” bəndinin sanksiyalarında “ölüm cəzası” sözləri “ömürlük azadllqdan məhrumetmə cəzası” sözləri ilə əvəz edilsin.

18-ci maddənin üçüncü hissəsində “ölüm cəzası növündə cəzası bağışlama və ya amnistiya qaydasında azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilmiş məhkumlar” sözləri, 78-ci maddənin birinci hissəsində “ölüm cəzası bağışlama və ya amnistiya qaydasında azadlıqdan məhrumetmə ilə əvəz olunmuş məhkumların” sözləri “ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş, habelə, ömürlük azadlıqdan məhrumetmə cəzası əfv qaydasında müəyyən müddətə azadlıqdan məhrumetmə cəzası ilə əvəz olunmuş məhkumların” sözləri ilə əvəz edilsin.

23-cü maddənin ikinci hissəsində, 24-cü maddənin ikinci hissəsində, 26-cı maddənin birinci hissəsində “ölüm cəzası bağışlama və ya amnistiya qaydasında azadlıqdan məhrumetmə ilə əvəz olunmuş” sözləri, 41-ci maddənin dördüncü hissəsində “ölüm cəzası növündə cəzası bağışlama və ya amnistiya qaydasında azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilən” sözləri “ömürlük azadlıqdan məhrumetmə cəzası əfv qaydasında müəyyən müddətə azadlıqdan məhrumetmə cəzası ilə əvəz olunmuş” sözləri ilə əvəz edilsin.

29-cu maddənin ikinci hissəsində “ölümə məhkum olunmuşlar” sözləri “ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuşlar” sözləri ilə əvəz edilsin.

65-ci maddənin üçüncü hissəsinin 3-cü bəndi aşağıdakı redaksiyada verilsin: “Ömürlük azadlıqdan məhrumetmə cəzası əfv qaydasında müəyyən müddətə azadlıqdan məhrumetmə cəzası ilə əvəz olunmuş şəxslər”.

Bu Qanun qüvvəyə mindiyi günədək ölüm cəzasına məhkum olunmuş şəxslərin cəzası ömürlük azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilsin.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 50-1 maddəsində nəzərdə tutulan məhdudiyyətlər, habelə, Azərbaycan Respublikası İslah-Əmək Məcəlləsinin 18, 23, 24, 26, 41, 65 və 78-ci maddələrində ömürlük azadlıqdan məhrumetmə cəzası əfv qaydasında müəyyən müddətə azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilmiş şəxslər üçün nəzərdə tutulan azadlıqdan məhrumetmə cəzasının icrası qaydası və şərtləri bu Qanunun qüvvəyə mindiyi günədək ölüm cəzası əfv və ya amnistiya qaydasında azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilmiş şəxslərə də şamil olunur.

Müharibə dövründə və ya müharibə təhlükəsi mövcud olduqda, ağır cinayətlərə görə müstəsna hallarda xüsusi qanun qəbul edilməklə, ölüm cəzasının tətbiqinə yol verilə bilər.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

> Hüquqi və dünya dövləti olan Azərbaycan Respublikasında ölüm cəzasının ləğv olunması ilə əlaqədar Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual və İslah-Əmək Məcəllələrinə dəyişikliklər və əlavələr edilməsi haqqında 1998-ci il fevralın 10-da Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə Azərbaycan Respublıkasının Qanunu qəbul edilmişdir.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

## Səudiyyə Ərəbistanının Kralı İraqa 1 milyard dollar hədiyyə edib



Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud İraqda müxtəlif layihələrin həyata keçirilməsi və Bağdadda Kral Salmanın adına idman şəhərciyinin inşa edilməsi üçün 1 milyard dollar ayırıb. AZƏRTAC xəbər verir ki, bunu İraqda səfərdə olan Səudiyyə Ərəbistanının ticarət və sərmayə naziri Macid Abdulla əl-Kassabi Bağdadda keçirilən mətbuat konfransında bəyan edib. Nazirin sözlərinə görə, səfər çərçivəsində İraq ilə Səudiyyə Ərəbistanının bütün sahələrdə ikitərəfli münasibətlərinin möhkəmləndirilməsi, iki ölkənin maraqlarına uyğun əməkdaşlığın genişləndirilməsi, strateji əməkdaşlığın inkişafı və bu ölkələr arasında sərmayələrin təşviqi məsələləri müzakirə ediləcək.

## Kraliça Elizabetin pilotu evində ölü tapılıb



Kraliça Elizabet və Şahzadə Filipin köhnə pilotu və həyat yoldaşı evlərində ölü tapılıb. AZƏRTAC xəbər verir ki, 84 yaşlı pilot Toni Midovs və həyat yoldaşı 83 yaşlı Paulanın cəsədləri Kembricdəki evlərində tapılıb. Polis və xəfiyyələrin cəlb olunduğu hadisə barədə hələlik tam məlumat yoxdur. Qeyd edək ki, pilot T.Midovs 1979-cu ildən Kraliça Elizabet və Şahzadə Filipin bir neçə səfərində onları müşayiət edib.

## Yaponiyada yaşlı insanlar sürücülük vəsiqəsindən imtina ediblər

Yaponiyada 2018-ci ildə yaşlı sürücülərin günahı səbəbindən ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinə görə rekord sayda sakin könüllü olaraq sürücülük vəsiqəsindən imtina edib. AZƏRTAC xəbər verir ki, bu barədə Yaponiya Baş Polis İdarəsi məlumat yayıb. Bildirilir ki, ötən il 75 yaşdan yuxarı 292 min 89 nəfər sürücülük vəsiqəsini geri qaytarıb. Bu, 2017-ci illə müqayisədə 38 min 152 nəfər çoxdur. Bunun sürücülük vəsiqələrinin könüllü qaytarılması ilə bağlı proqramın başladığı 1998-ci ildən bəri rekord göstərici olduğu da vurğulanır. Əlavə olaraq qeyd edilir ki, 2018-ci ildə Yaponiyada 75 və daha yuxarı yaşlı insanların törətdiyi yol-nəqliyyat hadisələri nəticəsində 460 nəfər həlak olub.

## Murad Bozla Aslı Enver gizlincə nişanlandı



Gah ayrılıb, gah barışan aktrisa Aslı Enver və müğənni Murad Boz cütlüyü ilə bağlı yeni xəbər yayılıb. SİA-nın türk mətbuatına istinadən verdiyi məlumata görə, cütlük yaxın günlərdə nikah masasına oturmağa hazırlaşır. Belə ki, aktrisa və müğənni gizli nişanlanıb. “Münasibətlərimiz haqda danışmamaq qərarı aldıq” deyən, cütlük bu xəbəri hələ gizli saxlamağa çalışır. Enver “İnstagram” səhifəsində şəkil paylaşaraq sirrlərinin üstünü açıb. Belə ki, aktrisanın barmağındakı nişan üzüyü diqqətdən qaçmayıb. Daha sonra isə Boz pianino ifa edərkən video yayımlayıb, onun da barmağında nişan üzüyü olduğu görülüb.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix-Coğrafiya fakültəsinin 1804 B qrup tələbəsi Həsənli Səma Zahid qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təlim və tərbiyənin metod və metodologiyası ixtisası üzrə II kurs magistr Muxtarlı Sevda Adil qızının adına verilmiş magistr bileti itdiyi üçün etibarsız sayılır.

## Bakı 14 ildən sonra yenidən bədii gimnastika üzrə dünya çempionatına ev sahibliyi edəcək




Azərbaycan Gimnastika Federasiyası ilin ən önəmli yarışlarından birinə hazırlaşır. Bakı 14 ildən sonra - sentyabrın 16-22-də bədii gimnastika üzrə dünya çempionatına ev sahibliyi edəcək. AZƏRTAC federasiyaya istinadla xəbər verir ki, zərif gimnastlar Milli Gimnastika Arenasında 1 həftə boyunca öz güclərini sınayacaqlar. Həm fərdi gimnastlar, həm qrup hərəkətləri komandaları ayrı-ayrı alətlər və çoxnövçülük üzrə mübarizə aparacaq, həmçinin komanda hesabında da ən yaxşıların adları açıqlanacaq.

Qeyd edək ki, dünya çempionatı “Tokio 2020” Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyacaq. Çempionat yalnız medalçıları deyil, həm də Olimpiadaya namizədlərin adlarını da müəyyənləşdirəcək. Belə ki, fərdi proqramda çoxnövçülük üzrə ilk 16 yerdə qərarlaşan gimnastlar (bir ölkədən maksimum 2 gimnast olmaqla) lisenziya əldə etmiş olacaq. Qrup hərəkətləri komandalarına gəldikdə isə ötən ilin dünya çempionatının nəticələrinə əsasən, Bolqarıstan, Rusiya və İtaliya artıq lisenziyanı təmin ediblər. Bu ilin çempionatında isə çoxnövçülük xalları üzrə daha 5 ən yaxşı komanda Tokioya vəsiqə qazanacaq.

## Arkadi Dvorkoviç: “Shamkir Chess 2019” superturniri yüksək səviyyədə təşkil edilib




İlk dəfədir Şəmkirə gəlirəm. Burada olmağıma çox şadam. “Shamkir Chess 2019” superturniri yüksək səviyyədə təşkil edilib. Bu sözləri Azərbaycanın tanınmış şahmatçısı, qrossmeyster Vüqar Həşimovun xatirəsinə həsr olunan “Shamkir Chess 2019” superturnirini izləmək üçün Şəmkirə gələn Beynəlxalq Şahmat Federasiyasının (FIDE) prezidenti Arkadi Dvorkoviç mətbuat konfransında deyib.

Qurum rəhbəri dünya çempionu Maqnus Karlsenin turnirdə iştirakını yüksək qiymətləndirərək deyib: “Dünyanın ən güclü şahmatçısı olan Maqnus Karlsenin oyunu daha çox maraq doğurur. Onun digərlərindən fərqi qarşılaşmalar zamanı diqqətini oyunlara maksimum cəmləyə bilməsi və öz üzərində daha çox işləməsidir.

FIDE-də bir sıra yeniliklərin tətbiq olunmasının müzakirə edildiyini vurğulayan A.Dvorkoviç bildirib: “Şahmatı bütün dünyada daha da sevdirmək üçün ciddi səy göstəririk. Dünyanın hər yerində şahmat məktəblərinin açılmasını istəyirik. Eyni zamanda, rəsmi yarışlarda qadın şahmatçıların iştirakçıların ən az 25 faizini təşkil etməsi əsas hədəfimizdir. Hazırda bütün məlumatların internet vasitəsilə əlçatan olması üçün vahid bazada yerləşdirilməsini nəzərdə tutan proqram üzərində çalışırıq”. Superturnirin beşinci turunda norveçli Maqnus Karlsen ilə şahmatçımız Şəhriyar Məmmədyarov arasındakı partiyada ilk gedişi FIDE prezidenti Arkadi Dvorkoviç edib.

## “Mançester Yunayted” mövsümün sonunda 6 futbolçu ilə vidalaşacaq



“Mançester Yunayted” futbol klubu mövsümün sonunda altı futbolçu ilə müqaviləyə xitam verəcək. TASS xəbər verir ki, klub rəhbərliyi yay transfer pəncərəsində Ander Errera, Xuan Mata, Aleksis Sançes, Antonio Valensiya, Markos Roxo və Matteo Darmian ilə yollarını ayırmağı planlaşdırır. Onlardan yalnız Aleksis Sançesin komandada qalmaq ehtimalı var. “Mançester Yunayted” ilə müqaviləsinin müddəti mövsümün sonunda başa çatacaq ispaniyalı qapıçı David De Xea ilə isə yaxın günlərdə yeni sözləşmənin imzalanacağı gözlənilir.

## “Yuventus” Mario Mandzukiç ilə müqaviləni yeniləyib




İtaliyanın “Yuventus” futbol klubu xorvatiyalı hücumçusu Mario Mandzukiç ilə müqavilənin müddətini uzadıb. Klubun saytında yer alan məlumata görə, yeni müqaviləyə əsasən, 32 yaşlı hücumçu 2021-ci ilin yayınadək “Yuventus”un formasını geyinəcək. 2015-ci ildə “Atletiko Madrid” komandasından transfer olunan futbolçu cari mövsümdə 29 oyunda 9 qol vurub.

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**